Günəş Şərqdən doğur!

№ 21 (5302), 2021-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

4 fevral 2021-ci il (cümə axşamı)



## Azərbaycanda yoluxma yenə artır

Son sutkada 4 nəfər koronavirusadan vəfat edib

Azərbaycanda son sutkada koronavirusa 162 yeni yoluxma faktı qeydə alınıb, 361 nəfər müalicə olunaraq sağalıb.

(Səh.2)

## Bakıda 1 müəllim yoluxub

2 şagird və 1 direktor müavini özünütəcrid edib



Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində əyani formada dərslərə davamiyyət 95 faiz təşkil edir.

(Səh.4)

**Günün içindən...**



## Dekabrdan bəri 10 qazi 11 müasir protezlə təmin olunub

**Ötən ilin dekabr ayından Vətən Müharibəsi qazilərinin müasir protezlərlə təminatı həyata keçirilir və artıq 10 qazimiz 11 müasir protezlə təmin olunub.**

Bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Cavid Əbdül-Qədirov dünən keçirilən mətbuat konfransında deyib.

(səh.3)

## Fevralın 8-dən başlanılacaq




Yaşı 65-dən yuxarı olan vətəndaşlar peyvənd olunacaq

(səh.3)

# Spiker və deputatların maaşları gündəm oldu



## Milli Məclis sosial şəbəkələrdə yayılan iddialara izahat verib

**Bir sıra sosial şəbəkələrdə "Milli Məclisin deputatlarının yeni əməkhaqqı cədvəli" başlığı altında yayımlanan iddialar həqiqəti əks etdirmir.** Milli Məclisin Mətbuat Xidmətindən "Şərq"ə verilən məlumata görə, bir müddət əvvəl Milli Məclisin deputatlarının aylıq vəzifə maaşları haqqında parlament Aparatının müvafiq şöbəsi tərəfindən ictimaiyyətə rəsmi məlumat verilməsinə baxmayaraq, bəzi qərəzli dairələr tərəfindən bu cür yalan iddiaların irəli sürülməsində məqsəd ictimai rəyi çaşdırmaq, Milli Məclisin nüfuzuna xələl gətirməkdir.

(səh.6)

# Pensiyaların verilmə qaydasında dəyişiklik olub

(səh.2)



## Birgə təlimlər aqressiv ölkələrə mesajdır

General Özgür Tor: "Belə təlimlər savaş xəbərçisi deyil"

(səh.6)

## Xüsusi təlim keçiblər

Türkiyənin Müdafiə Nazirliyi Azərbaycana 10 mina axtaran it hədiyyə edib

(səh.4)

## Beyləqanın icra başçısı şəhid məzarlarına başdaşı qoymayıb

Natiq Mehdiyev: "Təhlükə bitəndə bəziləri Allahı unudur, hərbçiləri isə ittiham edirlər"

(səh.10)

## Dərsə getməyənlər valideynlərin öhdəsinə qaldı

Məktəbə getməkdən imtina edən şagirdlər üçün ayrıca onlayn dərslər keçirilməyəcək

(səh.2)



## Polad Həşimovun qətlində şübhələr hələ qalır

Sülhəddin Əkbər: "Şübhə üçün ciddi əsaslar varsa, obyektiv araşdırma aparılmalıdır"

(səh.9)



## "Şuşada eynək taxan adam görməzdiniz"

"Hacıqulunun evi məşhurdu, 19-cu əsrdə tikilib, 3 mərtəbəli 47 otaqdan ibarət mülk olub"

(səh.8)

# “İndi tariximizin yeni səhifəsidir”

## Prezident İlham Əliyev: “Ümid edirəm, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaq”

Dünən Prezident İlham Əliyev İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edib. Dövlət başçısı vurğulayıb ki, İtaliya və Azərbaycan arasında münasibətlər uğurla inkişaf edir:



”Bir il bundan əvvəl ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik. Keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun şahidi olduq. Biz İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq və onu da gördük ki, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir. Ümid edirəm, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaq. Artıq bərpa işləri və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çünki mən artıq dəfələrlə çıxışlarımda demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Bu çətin anda siz dostlarınızın həqiqətən kimin olduğunu anlayırsınız. Bu, çox vacib və dəyərli bir məsələdir”.

**İtaliya-Azərbaycan Universiteti yaradılır, Bakıda yer ayrılıb**

**Prezident vurğulayıb ki, Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi planlaşdırılır:** ”Biz artıq yer ayırmışıq. Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb. Bu məsələ, həmçinin, hökumət səviyyəsində razılaşdırılıb. Ümid edirəm ki, gərgin çalışsaq, bu il biz bu işə başlaya bilərik. Çünki bu, bizim dostluğumuzun yaxşı göstəricisi olacaq və eyni zamanda, biz bu müəssisələri, bu sənaye sahələrini idarə edə bilək deyə bizim iqtisadiyyatın gələcək üçün tələb etdiyi ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu, həmçinin, ölkələrimiz arasında sıx dostluq əlaqələrinin güclənməsinə də kömək edəcək”.

**“Azad olunmuş bütün ərazilər “yaşıl enerji zonası”nı təşkil edəcək”**

**Dövlət başçısı qeyd edib ki, azad olunmuş bütün ərazilər ”yaşıl enerji zonası”nı təşkil edəcək:** ”Siz ”yaşıl kimya”nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir. Bu, həmçinin bizim gündəliyimizə tam uyğundur. Çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və xüsusən də bütün çirklənmiş sahələri təmizləyək. Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək”.

**Dövlət başçısı qeyd edib ki, buna görə, “yaşıl enerji” konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur:** ”Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər ”yaşıl enerji zonası”nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda, biz orada ”ağıllı şəhər”, hətta ”ağıllı kənd” adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu, həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün yaxşı nümunə olacaq”.

Prezident bildirib ki, Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq ediləcək: ”Çünki ölkə müasirləşməlidir, intellektual baxımdan bacarıqlı olmalıdır və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim bu cür güclü tərəfdaşa ehtiyacımız var.

**“Biz hər şeyi sıfırdan etməli olacağıq”**

**Ölkə başçısı bəyan edib ki, indi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək:** ”Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə-yeksan edilib. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də, əlbəttə, fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, pandemiyaya və Azərbaycanda keçən il olan iqtisadi azalmaya baxmayaraq, bizim qeyri-enerji sənayemiz 12,5 faiz artıb. Bu, sənayeləşmə proqramının əsl nümayişidir və ”Maire Tecnimont” kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlıq, əlbəttə ki, bizə kömək etdi və gələcəkdə də kömək edəcək”.

**İsmayıl**

# Dərsə getməyənlər valideynlərin öhdəsinə qaldı

## Məktəbə getməkdən imtina edən şagirdlər üçün ayrıca onlayn dərslər keçirilməyəcək

**Övladının məktəbə göndərilməsini istəməyən və bunun üçün iltizam yazan valideyn mütləq uşağının müstəqil öyrənməsini təmin etməlidir.**



Trend-in məlumatına görə, bunu Təhsil Nazirliyinin Ümumi təhsildə məzmun, tədris və qiymətləndirmə şöbəsinin müdiri Vəfa Yaqublu deyib.

Onun sözlərinə görə, məktəblərdə şagirdlərin sıxlığının qarşısının alınması üçün siniflər iki yarımqrupa bölünüb. Bununla əlaqədar müəllimin dərs yükü iki yarımqrup arasında bölünür. Bu səbəbdən müəllimlərin dərs yükü həmin şagirdlər üçün onlayn dərslərin təşkilinə imkan vermir.

Nazirlik rəsmisi qeyd edib ki, nəzəri olaraq, bütün sinfin valideynlərinin öz övladlarını məktəbə göndərməsindən imtina etməsi də mümkün ola bilər. Bu halda müəllim əvvəlki rejimdə bütün sinif üçün dərsləri virtual keçə bilər.

V.Yaqublu hazırda məktəblərdə sanitar-epidemioloji vəziyyətdən irəli gələn bütün tələblərə əməl edildiyini, onların dezinfeksiyaedici məhlullarla təmin edildiyini nəzərə çatdırıb.

# Timuçin Əfəndiyev rektor vəzifəsindən azad edildi



**Prezident İlham Əliyev T.İ.Əfəndiyevin Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilməsi haqqında sərəncam verib.**

Sərəncamla Timuçin İlyas oğlu Əfəndiyev Bakı Xoreoqrafiya Akademiyasının rektoru vəzifəsindən azad edilir.

# Lənkəranın polis rəisi Sumqayıt Polis İdarəsinə rəis gətirilib



**Sumqayıta yeni polis rəisi təyin edilib. Bununla bağlı Daxili işlər naziri Vilayət Eyvazov əmr imzalayıb.**

Əmrə əsasən, polis polkovniki Fəqan Azadəliyev Lənkəran rayon Polis Şöbəsinin rəisi vəzifəsindən azad edilərək Sumqayıt şəhər Polis İdarəsinə rəis təyin edilib.

*Daxili İşlər Nazirliyinin mətbuat xidməti APA-ya faktı təsdiqləyib.*

# Pensiyaların verilmə qaydasında dəyişiklik olub



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi xatırlatma xarakterli məlumat yayıb.**

Dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatlarda çalışan, fəxri adlara görə Prezidentin aylıq təqaüdünü alan şəxslərə həmin təqaüd işlədikləri idarə və təşkilatların vəsaiti hesabına, digər şəxslərə isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilirdi.

“Şərq”in məlumatına görə, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 may tarixli 2009 nömrəli Sərəncamına əsasən, 2021-ci il yanvarın 1-dən fəxri adlara görə bütün təqaüdlər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

# Azərbaycanda yoluxma yenə artır

## Son sutkada 4 nəfər koronavirusadan vəfat edib

**Azərbaycanda son sutkada koronavirusa 162 yeni yoluxma faktı qeydə alınıb, 361 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə ”Şərq”ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Son sutkada 4 nəfər COVID-19-dan vəfat edib. İndiyədək ölkədə ümumilikdə 230 617 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 224 168 nəfər müalicə olunaraq sağalıb, 3 145 nəfər vəfat edib. Hazırda 3 304 aktiv xəstə var. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 198, bu günə qədər isə ümumilikdə 2 426 945 test icra olunub.

# Rəsmi Bakı vaxt itirməməlidir

## Azərbaycanlılar təcili Xocalı, Xankəndi, Xocavənd, Ağdərəyə köçürülməlidir



### "Bu gün üzləşdiyimiz Dağlıq Qarabağ və erməni probleminin əsasında 300 ildir Rusiyanın apardığı demoqrafik strategiya dayanır"

**"Xocalı, Xankəndi, Xocavənd və Ağdərəyə geri dönüşün əsas yolu oranın demoqrafik strukturunu Azərbaycanın lehinə dəyişməkdir". Bu sözləri türkiyəli hərbi və təhlükəsizlik üzrə ekspert Abdullah Ağar deyib. O bildirib ki, bu addım həm də erməni təxribatlarının qarşısını almağa yardımçı olacaq:**

"Vaxtilə savaş zamanı bölgədən qaçqın və köçkün olaraq çıxarılan azərbaycanlı qardaşlarımızın yeni doğulan nəsillə birlikdə dövlətin dəstəkləyici siyasəti çərçivəsində oraya geri dönməsini tezləşdirmək lazımdır. Bu, ermənilərin hazırda oynadığı bütün oyunlara da son qoyacaq".

**Türkiyəli ekspertin açıqlamasını "Şərq"ə təhlil edən Azad Demokratlar Partiyasının sədri, təhlükəsizlik xidmətinin keçmiş əməkdaşı Sülhəddin Əkbər köç məsələsini daim izlədiyi və böyük hörmət bəslədiyi Abdullah Ağardan çox-çox əvvəl gündəmə gətirdiyini deyib. "Ağlın yolu birdir" deyən partiya sədri vurğulayıb ki, vətəndaşlarımızı öz doğma yurdlarına qaytarmadan həmin bölgədə Azərbaycanın suverenliyini bərpa etmək, hakimiyyət orqanlarının fəaliyyətini həyata keçirmək çox çətin olacaq:** "Keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin inzibati ərazisində yaşamış azərbaycanlıların geri dönüşü BMT-nin Ali Qaçqınlar Komissarlığına həvalə olunub. Rəsmi Bakı vaxt itirmədən Komissarlıqla əlaqə qurmalı, geri dönüşlə bağlı konkret siyasət həyata keçirilməlidir. Əvvəla, bütün ölkə üzrə demoqrafik strategiya işlənib hazırlanmalıdır. Bunun əsasında siyasi planlaşdırma aparılmalı, fəaliyyət proqramı icra olunmalıdır. Fəaliyyət proqramı da tarixi dövrlərə bölünməlidir. O cümlədən illik plan hazırlanmalıdır. Bu, çox böyük strategiyadır. Ancaq reallıq odur ki, konkret hansısa ərazidə dayanıqlı nəticəyə nail olmağın təməlində demoqrafik siyasət durur. Bu gün üzləşdiyimiz Dağlıq Qarabağ və erməni probleminin əsasında 300 ildir Rusiyanın apardığı demoqrafik strategiya dayanır. Hələlik nəzarətimizdə olmayan ərazilərdə azərbaycanlıların məskunlaşma siyasəti həyata keçirilməlidir. Nə vaxt bu reallığı anlasaq, problemin həllini görəcəyik".

Sülhəddin Əkbərin sözlərinə görə, hazırda əsas qayəmiz soydaşlarımızın doğma yurdlarına qayıdışına nail olmaq, Qarabağın dağlıq hissəsində Azərbaycanın suverenliyini bərpa etməkdir: "Bölgədə yaşayan, qeydiyyatda olan ermənilər Azərbaycan vətəndaşlığını qəbul edəcəksə, onların təhlükəsizliyi, demokratik haqları, milli-mədəni hüquqları qorunacaq. Qarabağda yaşayan ermənilərə təklifimiz bundan ibarət olmalıdır. Düzgün demoqrafik siyasəti həyata keçirsək, şübhə etmirəm ki, bizi narahat edən məqamlar öz-özlüyündən ortadan qalxacaq. Qarabağ türk torpağıdır. Uzunmüddətli perspektivdə də türklərə məxsus olacaq. Ona görə orada azərbaycanlılar üstünlük təşkil etməlidir".

**Partiya rəhbərinin qənaətincə, köç prosesinin yubanmasının obyektiv və subyektiv səbəbləri var:** "Nəzərə alaq ki, birbaşa nəzarətimizdə olan, işğaldan azad edilmiş ərazilərə belə yurddaşlarımızı köçürməmişik. İlk növbədə torpaqlarımızda təhlükəsizlik məsələsi təmin olunmalıdır. Həmin ərazilərin Azərbaycan Ordusunun, təhlükəsizlik qüvvələrinin nəzarətində olduğu tam müəyyənləşməlidir. Digər tərəfdən bölgə minalardan təmizlənməli, infrastruktur işləri həyata keçirilməli, qaz, su, işıq xətləri çəkilməli, digər zəruri xidmətlər yaradılmalıdır. Əlbəttə, bu işlərə başlamazdan öncə dəymiş ziyanın qiymətləndirilməsi prosesi başa çatdırılmalıdır. Qiymətləndirmə bitməmiş quruculuq işlərinə start verilsə, ərazilərimizin erməni işğalı zamanı hansı vəziyyətdə olduğunu sübut etmək çətin olar. Quruculuq başa çatdıqdan sonra əhalinin köçürülməsinə başlamaq mümkündür. Bu da kifayət qədər vaxt aparan prosesdir. Üstəgəl, Qarabağın rus sülhməramlılarının nəzarətində olan hissəsində subyektiv amillər də var. Bölgənin və sülhməramlıların statusu hələlik qeyri-müəyyən olaraq qalmaqdadır. Eyni zamanda erməni silahlı qüvvələri tamamilə tərksilah olunmayıblar. Bölgəyə azərbaycanlıların geri qayıtması üçün heç bir təhlükəsizlik tədbiri görülməyib. Yubanmanın səbəbləri bunlardır".

**İsmayıl Qocayev**



## Dekabrdan bəri 10 qazi 11 müasir protezlə təmin olunub

**Ötən ilin dekabr ayından Vətən Müharibəsi qazilərinin müasir protezlərlə təminatı həyata keçirilir və artıq 10 qazimiz 11 müasir protezlə təmin olunub.**

Bunu Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Cavid Əbdül-Qədirov dünən keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, dünyanın məşhur protez istehsalçılarından olan "OTTO BOKK" şirkəti (Almaniya) ilə əməkdaşlıq şəraitində yaradılan sexdə "Genium" sistemi üzrə protezlər hazırlanır. Bu protezlər yüksək aktivlik və funksionallıq dərəcəsi olmaqla, elektron oynaq əsasında hərəkətin tam və daha dəqiq tənzimlənməsinə, sabit, təhlükəsiz və inamlı, rahat hərəkətə imkan verir.

Agentlik sədri reabilitasiya sisteminin müasirləşdirilməsi işlərinin davam etdirildiyini bildirib.

## Fevralın 8-dən başlanılacaq

### Yaşı 65-dən yuxarı olan vətəndaşlar peyvənd olunacaq



**Fevralın 5-dən etibarən 65 yaşdan yuxarı vətəndaşlar qeydiyyatdan keçiriləcək.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Nazirlər Kabinetindən bildirilib. Qeyd olunub ki, 65 yaşdan yuxarı qeydiyyatdan keçmiş hər bir vətəndaşa SMS məlumat göndərilərək peyvəndləşməyə dəvət olunacaq.

Məlumata əsasən fevralın 8-dən başlayaraq bu yaş qrupuna aid olan vətəndaşlara peyvənd vurulacaq.

Ölkədə bu kateqoriyaya aid olan təqribən 700 000 vətəndaş var.

## "YAŞAT" Fondu 4 şəhidin ailə üzvünün əməliyyat xərclərini qarşılayıb



**"YAŞAT" Fondu tərəfindən şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi ilə bağlı işlər davam etdirilir.**

"ASAN xidmət"dən APA-ya verilən məlumata görə, şəhidimiz Şamil Hüseynlinin atası Novruz Hüseynovun, şəhidimiz Cəsarət Səfərovun anası Nuriyyə Səfərovanın, şəhidimiz Məhəmməd Səmədovun qardaşı Bəylər Səmədovun, şəhidimiz Zəbiyulla Məmmədovun anası Aynurə Məmmədovanın əməliyyat xərcləri Fond tərəfindən qarşılanıb.

Müvafiq müayinə və müalicə tədbirləri davam etdirilir.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# İtaliya-Azərbaycan universiteti nə vəd edir?

## Kamran Əsədov: "Ali təhsil bazarında rəqabət artacaq"



**"Planlarımız haqqında sizə bir məsələni də qeyd etmək istəyirəm. Əminəm ki, siz bu barədə bilirsiniz. Lakin bu istiqamətdə işlər gedir. Bu məsələ Bakıda İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlıdır. Biz artıq yer ayırmışıq. Artıq universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlayıb".**

Prezident İlham Əliyev fevralın 3-də İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul edərkən bu sözləri deyib.

**Mövzu ilə bağlı "Şərq"lə fikirlərini bölüşən təhsil eksperti Kamran Əsədov bunun olduqca əhəmiyyətli addım olduğunu qeyd edib:**

"Hazırda ölkəmizdə Fransa-Azərbaycan və Koreya-Azərbaycan birgə ali təhsil müəssisələri fəaliyyət göstərir. Ölkəmizdə xarici ölkələrin dünya reytinqli universitetlərinin filiallarının və birgə fəaliyyət göstərən ali təhsil ocaqlarının açılması çox müsbət bir haldır. Çünki Azərbaycan Avropa təhsilinə inteqrasiya edir. 2005-ci ildən ölkəmizdə boloniya təhsil sisteminə keçid edilib. İtaliya universitetlərinin də Azərbaycanda yaradılması olduqca mühüm addımdır. Bu ölkənin universitetləri dünya reytinqdə olan, müasir dövrün tələblərinə cavab verən, eyni zamanda özünün maddi-texniki bazasının güclü olmasına görə seçilən universitetlərdir".

**K.Əsədov deyir ki, İtaliya-Azərbaycan Universitetinin təsis edilməsi Azərbaycan ali təhsil bazarında rəqabəti artıracaq:** "Azərbaycanda turizm-otelçilik, dizayn-memarlıq ixtisaslarında xarici ölkələrin, xüsusilə İtaliya təhsilinin təcrübəsinə çox böyük ehtiyac var. Ona görə ki, bu universitetlər qeyd etdiyim istiqamətlər üzrə dünyada çox öndədirlər. Düşünürəm ki, həmin universitetlərin yaradılması bu sahədə kifayət qədər köməyimizə çatacaq. Sözügedən məsələ Azərbaycan ali təhsil bazarında rəqabət mühitini artıracaq. O cümlədən, ali təhsil ocaqlarına Avropadan mütəxəssislərin gəlməsinə səbəb olacaqdır".

**Aytac Ali**

# İslahat, islahat, yenə də islahat...

## Asim Mollazadə: "Belə bir vaxtda məmurlar yeni reallıqlarla hesablaşmalıdırlar"



**Prezident İlham Əliyev Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışı zamanı Mərkəzi Bankın sədri Elman Rüstəmovun təmsil etdiyi qurumun Şuşada nümayəndəliyinin açılmasına dair fikirlərinə münasibət bildirib.**

Dövlət başçısı E.Rüstəmovun yanaşmasını tənqid edib: "Mənim münasibətim buna mənfidir. Özü də mən deyim nəyə görə. Birincisi, bu, özbaşınalıqdır. Belə açıqlama veriləndə mütləq rəhbərliklə gərək məsləhətləşmə aparılsın.

Azad edilmiş torpaqların bərpası ilə bağlı mənim tərəfimdən bir çox önəmli qərarlar qəbul edilib, qərargah yaradılıb. Qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir.

Mən demişdim ki, bütün təkliflər, bütün təşəbbüslər oraya göndərilməlidir. Çünki biz kim necə istəyir o torpaqları, əraziləri bərpa edə bilmərik. Biri filial açmaq istəyir, biri nə bilim, başqa qurum açmaq istəyir. Bu, yolverilməzdir və qəbuledilməzdir.

Ona görə burada subardinasiya olmalıdır. Ucuz populyarlıq qazanmaq üçün, yaxud da ki, özü üçün hansısa bir ofis, yeni ofis yaratmaq üçün belə açıqlamaların verilməsi tamamilə qəbuledilməzdir və buna son qoyulmalıdır.

İndi Mərkəzi Bank insanlara xidmət göstərib ki, orada filial açsın? Kimin üçün filial açacaq? Özü üçün ki, gedib orada otursun, yaxud da ki, gedəndə bunun bir iqamətgahı olsun, şəraiti olsun, oraya pullar xərclənsin və insanların buna hansı xeyri dəyəcək? Heç bir".

**Bu barədə "Şərq"ə danışan millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə səslənən fikirlərin mühüm əhəmiyyət kəsb etdiyini düşünür:** "Ölkədə islahatlar davam edir. Belə bir vaxtda məmurlar yeni reallıqlarla hesablaşmalıdırlar. Onları düşündürən yeganə amil xalqa xidmət olmalıdır. Ancaq öz işlərini görməli və bundan başqa heç nə ilə maraqlanmamalıdırlar. Biz ölkədə qeyri-neft və özəl sektoru inkişaf etdirməliyik. Bunun üçün isə bəzi məmurların təfəkkürü dəyişməlidir. Prezident məlum tənqidi ilə onları yerinə oturtdu.

Bu, islahatların davamlı olacağına dair mesajdır. Yalnız yeni idarəetmə sisteminə uyğun məmurlar öz fəaliyyətlərini davam etdirəcəklər".

**Kənan Novruzov**

## Xüsusi təlim keçiblər

### Türkiyənin Müdafiə Nazirliyi Azərbaycana 10 mina axtaran it hədiyyə edib



**Fövqəladə Hallar Nazirliyi Xüsusi Riskli Xilasetmə Xidmətinin 23 nəfərdən ibarət pirotexnik və istehkam qrupu Türkiyə Respublikası Milli Müdafiə Nazirliyi Baş Qərargahının Bakı Silahlı Qüvvələr Attaşeliyinin təşkilatçılığı ilə qardaş ölkədə Xüsusi Mina Axtarış və Təmizləmə kursunu müvəffəqiyyətlə bitirərək Azərbaycana qayıdıb.**

"Şərq" Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, 3-29 yanvar 2021-ci il tarixlərində İzmir şəhərində İstehkam Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilmiş kurslarda iştirak edən FHN əməkdaşları ərazilərin minalardan təmizlənməsi və zərərsizləşdirilməsi sahəsi üzrə bilik və bacarıqlarını təkmilləşdiriblər. Kursun yekununda şəxsi heyətə təlim-tədris prosesini bitirmələri barədə sertifikatlar təqdim olunub.

Bundan əlavə, Türkiyə Milli Müdafiə Nazirliyi tərəfindən ikitərəfli əməkdaşlıq münasibətləri çərçivəsində Azərbaycan Fövqəladə Hallar Nazirliyinə 10 xüsusi təlim keçmiş minaaxtaran it də hədiyyə edilib. FHN-in kinoloqlarının həmin itlərin ölkəmizə gətirilməsi, həmçinin müvafiq sahədə bacarıqlarının artırılması məqsədilə Türkiyəyə ezam olunması üçün hazırlıq işləri görülür.



## Bakıda 1 müəllim yoluxub

### 2 şagird və 1 direktor müavini özünütəcrid edib

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində əyani formada dərslərə davamiyyət 95 faiz təşkil edir.**

Fevralın 1-dən ümumi təhsil müəssisələrində ibtidai siniflər və məktəbəhazırlıq qrupları üzrə ənənəvi təhsil bərpa olunub. Keçən müddət ərzində BŞTİ-nin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 1 müəllimdə koronavirus infeksiyası (COVİD-19) aşkar olunub. 2 şagird və 1 nəfər təlim-tərbiyə işləri üzrə direktor müavini isə koronavirus xəstəsi ilə təmasda olduğu üçün özünütəcrid rejiminə keçib.

İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə təhsil alan 182 018 şagirddən 1106 nəfərin valideyni övladının tədris prosesində əyani şəkildə iştirakından imtina etməsi ilə bağlı iltizam sənədi imzalayıb.

## Şəhidin atası vəfat etdi

### O, oğlunu çətinliklərlə daxmada böyütdüyünü bildirmişdi



**Lənkəran rayonu Gəgiran kəndindən olan şəhid Qalib Nuruzadənin atası Habil Nuriyev dünyasını dəyişib.**

"Qafqazinfo" xəbər verir ki, H. Nuriyev dünən xəstəxanada vəfat edib. Qeyd edək ki, bir neçə gün əvvəl şəhidin atası yutub kanalında verilişdə çıxış edib. O, şəhid oğlunu çətinliklərlə daxmada böyütdüyünü bildirmişdi. H. Nuriyevin vəfat etdiyini kəndin icra nümayəndəsi Şamil Mirzəyev də təsdiqləyib. Xatırladaq ki, Q. Nuruzadə Vətən Müharibəsində şəhid olub.

# Mina partlayışları təsadüfdən olmur

**"Metal qırıntıları, tikintiyə yararlı avadanlıqlar toplamağa gedənlər var"**

Ağdamda daha 3 nəfər minaya düşüb. Rayon sakinləri 1984-cü il təvəllüdlü Toğrul Əhmədov və 1990-cı il təvəllüdlü Elçin Məmmədov işğaldan azad olunan Şahbulaq kəndinin ərazisində olarkən piyada əleyhinə minaya düşüblər. Nəticədə E.Məmmədov həlak olub, Toğrul Əhmədov və digər bir hərbi qulluqçu isə ağır dərəcəli bədən xəsarətləri alıb. Xatırladaq ki, yanvarın 21-də Azərbaycan Ordusunun hərbi qulluqçusu mina partlayışı nəticəsində həyatını itirmişdi.



**"Hadisələrin meydana gəlməsinin əksəriyyətinin kökündə bölgəyə məsul şəxslərin verdiyi qanunsuz tapşırıqlar dayanır"**

Ondan bir gün sonra isə mülki şəxs Azər Sultanov işğaldan azad edilmiş Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində minaya düşərək xəsarət almışdı.

Ümumiyyətlə, torpaqlarımız azad olunandan bu yana 15-ə yaxın vətəndaşımız təhlükəsizliyi tam təmin olunmamış ərazilərdə minaya düşüblər. Hadisələrin əksəriyyəti qayda-qanunlara və müvafiq tələblərə riayət etməməkdən, yaxud səhlənkarlıqdan meydana gəlib. Mina partlayışlarının sayının artması və mütəmadi belə olayların yaşanması ictimaiyyətin narahatlığına səbəb olur. İddia edilir ki, əgər torpaqlarımızın minalardan tam təmizlənməsi mütəxəssislərin dediyi kimi uzun müddət davam edərsə, qeyri-döyüş şəraitində ölüm halları çoxala bilər. Ona görə də bütün vətəndaşlarımız dövlət qurumlarının çağırışlarına qeyd-şərtsiz əməl etməli, tövsiyyə və məsləhətləri qulaqardına vurmamalıdır. Şübhəsiz, yüz minlərlə insanın ürəyi Vətən həsrəti ilə döyünür, hamı bir an öncə doğma yurduna, ata-baba ocağına ayaq basmağa tələsir. Hər halda mövcud riskləri nəzərə alaraq bir qədər səbirli olmaq, təmkinli davranmaq daha məqsədəuyğundur.

**Sosial Tədqiqatlar Mərkəzinin sözçüsü, siyasi şərhçi Əziz Əlibəyli "Şərq"ə deyib ki, məxsusi qaydada maarifləndirici tədbirlər həyata keçirilsə də, işğaldan azad olunmuş torpaqlarımıza giriş-çıxışla bağlı ciddi problemlər var.** Ekspertin sözlərinə görə, hadisələrin meydana gəlməsinin əksəriyyətinin kökündə bölgəyə məsul şəxslərin verdiyi qanunsuz tapşırıqlar dayanır: "Məsul adamlar bəzi vətəndaşları işğaldan azad olunmuş ərazilərə müəyyən missiya ilə göndərirlər. Özəl "missiyalar" içində hansısa metal qırıntılarının toplanması, tikintiyə yararlı avadanlıqların yığılması və bazarlarda satılması kimi məsələlər də var. Əfsuslar olsun ki, minalı ərazilərdə bu cür axtarışlar həmin şəxslərin həyatı bahasına başa gəlir və davamlı xarakter alır. Əvvəl deyirdim ki, bəzi şəxslər uzun illər həsrətində olduqları dədə-baba torpaqlarını ziyarət etmək məqsədi ilə bunu edirlər. Yəni bir mənəvi tərəfi var. Amma araşdırmalar göstərir ki, mina partlayışlarının əksəriyyəti sırf axtarış səbəbi ilə bölgəyə yollanan adamlar ucbatından baş verir. Məsələn, traktorla, ekskavatorla hansısa metalın axtarışı, məhsulların toplanması zamanı bu cür partlayışlar yaşanır. Bunun qarşısını almaq üçün qanunun sərt üzü tətbiq olunmalıdır. İşə qol qoyan vəzifəli şəxslər cəzalandırılmalı və qadağan edilmiş zonada axtarış apardıqları üçün müharibə qanunlarına uyğun mühakimə olunmalıdırlar. Ümumiyyətlə, düşünürəm ki, indiki halda işğaldan azad olunmuş qapalı bölgələrə giriş-çıxış sərt əsgəri rejimlə mümkün olmalıdır".

**İsmayıl Qocayev**

# "Dəmir yumruq" rüşvətxor məmurların başında çatlamalıdır

## Əli Oruclu: "Bu, başqalarına bir növ siqnal olmalıdır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət televiziyasında çıxışı zamanı məmurlara qarşı sərt, obyektiv tənqidi baxış ortaya qoyur. Ölkə rəhbərinin son çıxışında ən mühüm məqam hazırda Şuşa şəhərinə məmurların "zəbtetmə hücumu" oldu.

"Mən indi müvəqqəti idarəetmə strukturu yaratmışam. Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır.

Məmurlar öz yerlərini bilsinlər, öz işləri ilə məşğul olsunlar. Bir də mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbiləşdirməsin".

Rüşvətxor məmurlara qarşı amansız olan cənab Əliyevin sözügedən nitqindən sonra nazirlərin, eləcə də yüksək çinli məmurların səsi elə o kəsilən kəsildi, bir anlıq sükut yarandı. Fəqət, bu sükut da onları gizləndikləri stulların arxasında mötəbər saxlamayacaq.

Prezidentin tənqidi yanaşmalı mövqeyi bizə rüşvətxor, korrupsioner məmurların sonunun yaxın zamanlarda gələcəyini vəd edir. Bəs məlum vəzifələrə qarşı ölkədə yeni "həbs dalğası" gözlənilirmi?

**Məsələni AMİP-in Mərkəzi Şurasının üzvü Əli Oruclu "Şərq"ə belə şərh etdi:** "Əgər məmurlara qarşı doğrudan da ciddi tədbirlər görüləcəksə, korrupsiya ilə mübarizədə özbaşınalıqlar əleyhinə sərt addımlar atılacaqsa, o zaman gərək məmurların 90 faizi cəzalandırılsın. Amma onlardan elələri var ki, artıq həddi keçiblər. Yəni onlar üçün qırmızı xətt və ya hər hansı bir cizgi qalmayıb. Bu baxımdan ilk növbədə həmin məmurlar cəzalandırılmalıdır. Əslində, cəzalandırma var, amma qismən cəzalandırılırlar. Onlara uzaq başı töhmət verilir, ya da xəbərdarlıq edilir. Sıralarında həbs olunanlar da var. Amma gərək onlar tutduqları vəzifədən uzaqlaşdırılsınlar. Həmin şəxslər üçün hüquqi ölçü götürülməlidir ki, bu da digərlərinə dərs olsun.

Görün vəziyyət nə həddə çatıb ki, prezidentin özü bu tip məmurlara qarşı cəmiyyətə müraciət edir. Yəni bəlkə də onlara qarşı mübarizə biz gördüyümüz kimi sadə və bəsit deyil. Amma istənilən halda 44 günlük müharibədə elə bir düşmənə qalib gələn rəhbərlik təbii ki, xalqın etimadına və güvəninə əsaslanaraq dövləti belə məmurlardan da xilas etsin".

**Ə.Oruclu hesab edir ki, bu yöndə real addımların atılması bir neçə baxımdan məqsədəuyğundur:** "Düşünürəm ki, bu, başqalarına bir növ siqnal olmalıdır. Eyni zamanda real addımlar da atılmalıdır ki, həm cəmiyyət, həm də digərləri görsün ki, səsləndirilən fikirlər sadəcə hədə-qorxudan ibarət deyil və bu, əməldə də həyata keçirilə bilər.

Yəni "dəmir yumruq" hər yöndə öz fəaliyyətini göstərməlidir, xarici qüvvələrə qarşı, rüşvətxor məmurlara qarşı və s. Bu yumruq elə bir yumruqdur ki, çox şeyləri islah edir".

**Ağarza Elçinoğlu**



# Adlarda tarixi izlər var

## Alim kəndlərə şəhidlərin adının verilməsini düzgün saymır

**"Elə kəndlərimiz var ki, adı heç bir mənə vermir və ya uyğun ad deyil. Məsələn, "Cındırlı"! Və ya, Qubanın Alekseyevka (ruslar yaşamır) kəndi.** Olmazmı o kəndlərə həmin kəndin şəhidinin adı verilsin? Məsələn, Alekseyevkanın şəhidi Ülvi Məmmədovun şərəfinə Ülvi kəndi adlandırılsın. Məncə, çox gözəl olar! "- Bu sözləri hərbi jurnalist, Qarabağ qazisi Rey Kərimoğlu özünün "Facebook" hesabında yazıb.

**Təklifi "Şərq"ə şərh edən Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun cavabı qısa və konkret olub:** "Başqa hallarda deyə bilmərəm, fəqət kəndin adı tarixi əhəmiyyət daşıyırsa, onda dəyişməməlidir. Tutalım, hansısa tayfanın adıdırsa, ya da yazılı abidələrdə qeyd olunubsa, deməli, həmin sözdə tarixin izi var. Elə isə məncə, olduğu kimi qalmalıdır".

**Kənan**

# Paşinyan Ermənistanın Rusiyadakı səfirini geri çağırır

## Baş nazir bununla Moskvanı su yoluna döndərən qüvvələri neytrallaşdırmaq istəyir



**Ermənistan mediasının yazdığına görə, Baş nazir Nikol Paşinyan ölkəsinin Rusiyadakı səfiri Vardan Toqanyanı geri çağırmaq barədə qərar qəbul edib. Məlumata görə, hökumət başçısı Moskvadakı səfirin yerinə öz adamını, "cib diplomatını" təyin etmək niyyətindədir.**

Ermənistanın Xarici İşlər Nazirliyi isə bildirib ki, ölkənin xaricdəki səfirlərini prezident Armen Sarkisyan təyin edir və ya geri çağırır. Qeyd olunub ki, hələlik dövlət başçısı Ermənistanın Rusiyadakı səfirinin vəzifədən azad olunması barədə sərəncam imzalamayıb. Xatırladaq ki, Toqanyan 2017-ci il martın 10-da Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyan tərəfindən Rusiyaya səfir təyin edilib. Ekspertlərin fikrincə, Paşinyan Rusiyadakı əlini gücləndirmək məqsədi ilə Moskvaya sabiq prezident Serj Sarkisyanın təyin etdiyi adamı deyil, özünə yaxın fiquru göndərmək niyyətindədir.

**Səfirlə bağlı xəbərlərə münasibət bildirən politoloq İlqar Vəlizadə "Şərq"ə bildirib ki, "Qarabağ klanı"nı təmsil edən sabiq prezidentlər və köhnə komandanın digər nümayəndələri Moksva ilə münasibətləri aktivləşdirməyə can atırlar.** Ekspertin sözlərinə görə, Ermənistanın Rusiyadakı səfiri Toqanyan münasibətlərin qurulması yönündə köhnə komanda üzvlərinə böyük köməklik göstərir: "Toqanyan "Qarabağ klanı"nı təmsil edən şəxslərin Moskvada müəyyən rəsmilərlə təmasını təşkil edir. Bir növ onların himayədarı, tərəflər arasında rabitəçi rolunu oynayır. Belə vəziyyətdə Paşinyanın öz adamını Rusiyaya səfir təyin etməkdə maraqlı olması anlaşılandır. Yeni erməni səfir köhnə komanda üzvlərinin Rusiyadakı hərəkətlərini izləyəcək, görüşlərə nəzarət edəcək, yeri gələndə isə təmasların baş tutmasına maneçilik törədəcək. Baş nazir ehtiyat edir ki, tez-tez Moskvaya üz tutan eks prezidentlər və onların adamları Kremldəki bəzi dairələrlə əlbir olub Ermənistanda dövlət çevrilişi edə bilərlər. Ona görə də bu cür fəaliyyyətləri mümkün qədər neytrallaşdırmağa çalışır".

**İsmayıl**

Azərbaycanda iqtidar-müxalifət çəkişmələri həmişə olub. Xüsusilə son aylar siyasi proseslərin inkişaf etdiyi, o cümlədən İkinci Qarabağ müharibəsindən sonra tərəflər arasında mübahisələr daha da artıb. Ayrı-ayrı qütblərin nümayəndələri biri-birlərini tənqid edir, günahlandırırlar.

Biz analoji hallara müxtəlif platformalarda, eləcə də "Yeni Müsavat" media holdinqinin "Youtube" televiziyasında - "Tv Müsavat"da aydın görə bilərik.




# İqtidar-müxalifət çəkişməsində güclü arqument udur

## Sevinc Telmanqızı: "Daha zəif arqumentli tərəf səsini yüksəltməyə, söz kəsməyə, yersiz halda gərginlik yaratmağa çalışır"

YAP nümayəndələri ilə fərqli partiya sədrləri bəzən biri-birlərini təhqir etməkdən də çəkinmirlər. Yəni siyasi etika pozulur. Elə isə siyasi mədəniyyətə əməl etməyən hansı tərəfdir: iqtidar, yoxsa müxalifət?

**"TV Müsavat"ın moderatoru, tanınan jurnalist Sevinc Telmanqızı bu barədə "Şərq"ə danışarkən bildirib ki, məsələyə təsir edən daha çox obyektiv məqamlardır:** "Konkret bir personanın və ya düşərgənin üzərinə fokuslanmaq olmaz. Çünki bu, debatın formatından, tərəflərin kimliyindən asılıdır. Unutmaq olmaz ki, bəzən də müzakirə olunan mövzuda daha çox haqlı olan, arqumentləri güclü olan tərəf üstün mövqedə olur. Bu zaman daha zəif arqumentli tərəf səsini yüksəltməyə, söz kəsməyə, yersiz halda gərginlik yaratmağa çalışır.

Bunu "İqtidar, yoxsa müxalifət tərəfdən olanlar daha çox edir" sualının konkret cavabı yoxdu. Çünki bu, personalara və situasiyaya bağlıdır. Amma müxalifət nümayəndələrinin üzünə heç də bütün kanallar açıq deyil, söz deyəcəkləri ünvanların sayı azdır.

Bu baxımdan "TV Müsavat"dakı efirlərdə onların ən çox səsləndirdiyi arqument belə olur: "Onsuz da iqtidar nümayəndələrinin üzünə bütün efir məkanları açıqdır. Barı, burda çox danışmasınlar". Amma mən debatlarda reqlamentə, etikaya əməl olunmasının, qonaqların bir-birinə, aparıcıya və tamaşaçıya hörmət etməsinin tərəfdarıyam.

Bunun üçün də bir aparıcı olaraq əlimdən gələni edirəm".

**Kənan Novruzov**

# Baydenin yeni planı açıqlanacaq

## ABŞ Türkiyəsiz Suriyada uğur qazana bilməz



Vaşinqtonda yeni prezident Co Baydenin Suriya məsələsilə ilə bağlı yeni və yaradıcı bir yanaşma formalaşdıracağına inanırlar. Lakin ABŞ paytaxtında Prezidentin yeni yanaşmasının necə qarşılanacağına və onu qane edəcək bir Suriya planı təqdim ediləcəyinə şübhə ilə baxılır.

Bu günləri bir çoxlarını düşünüdürən məqam ABŞ-ın yeni Suriya planı ilə bağlı ortaq qərarın əldə edib-edilməyəcəyidir. Qeyd edək ki, Bayden, Suriyada Obama və Tramp administrasiyaları tərəfindən həyata keçirilmiş siyasətləri çox bəyənməsə də, həmin siyasətlərin bölgədəki tətbiqedicisi, hətta planlaşdırıcısı mövqeyində olan CENTCOM komandirlərinin Pentaqon iyerarxiyası daxilindəki gücləri davam etməkdədir. Tramp hakimiyyətdən getmədən öncə, son anda bu CENTCOM-un səlahiyyət zonasına İsraili də daxil edərək, bölgədə YPG ilə əməkdaşlıq içində çalışan bu qurumun əlinə daha bir güc vermiş olub. Bu səbəblə, yeni müdafiə nazirinin içindən gəldiyi bu CENTCOM əngəlini aşaraq yeni Suriya siyasəti formalaşdırmağı bacara bilməsi hazırda elə də asan görünmür.

**Ədalət Partiyası sədrinin siyasi məsələlər üzrə müavini Elxan Şükürlü "Şərq"ə açıqlamasında deyib ki, ABŞ-ın yeni administrasiyasının Suriya ilə bağlı hansı addımları atacağı hazırda elə Amerikanın özündə də ciddi müzakirə olunur.** Çünki ABŞ-da hesab edirlər ki, həm Obama, həm də Tramp dövründə ABŞ-ın Suriya siyasəti doğru olmayıb: "Nəticədə, bölgədə ABŞ-ın maraqlarına ciddi zərbə dəyib. Bu səbəbdən də gözlənilir ki, Bayden komandasının tam formalaşdırdıqdan sonra Suriya ilə bağlı yeni plan qəbul edəcək. Bu işdə əsas yük də yeni dövlət katibi Antoni Blinken və yeni Müdafiə naziri Ostinin üzərinə düşəcək. Blinken kifayət qədər təcrübəli və hazırlıqlı diplomatdır. Pentaqonun rəhbəri - Müdafiə naziri Ostin isə əvvəllər İraqda, Suriyada işləyib, bölgəni, oradakı qruplaşmaları çox yaxşı bilir".

**E.Şükürlü diqqətə çatdırıb ki, Türkiyəsiz ABŞ Suriyada uğur qazana bilməz:** "Trampdan fərqli olaraq, Baydenin imkanı var ki, Suriya ilə bağlı dövlət qurumlarının hamısının birgə qəbul etdiyi bir ortaq Suriya planı hazırlasın. Və həmin plan həyata keçirilsin. Ancaq bunun üçün Suriyadakı proseslərə ciddi təsir imkanlarına sahib Türkiyə, Rusiya və İranla ABŞ-ın münasibətlərini necə quracağı da dəqiqləşdirilməlidir. Bu üçlük sırasında da Türkiyə ilə münasibətlərin bundan sonra necə qurulacağı ABŞ üçün çox önəmlidir. Türkiyəsiz ABŞ Suriyada uğur qazana bilməz. Sabah - fevralın 4-də Baydenin xarici siyasətlə bağlı nitqi gözlənilir, əsas istiqamətlər, yəqin ki, orda əksini tapacaq. Ardınca fevralın 16-17-də də NATO-ya üzv ölkələrin müdafiə nazirlərinin toplantısı keçiriləcək. Yalnız bundan sonra demək olar ki, ABŞ-ın yeni Suriya planında nələrə üstünlük veriləcək".

**Aynurə Pənahqızı**

## Spiker və deputatların maaşları gündəm oldu

### Milli Məclis sosial şəbəkələrdə yayılan iddialara izahat verib

**Bir sıra sosial şəbəkələrdə "Milli Məclisin deputatlarının yeni əməkhaqqı cədvəli" başlığı altında yayımlanan iddialar həqiqəti əks etdirmir.**

Milli Məclisin Mətbuat Xidmətindən "Şərq"ə verilən məlumata görə, bir müddət əvvəl Milli Məclisin deputatlarının aylıq vəzifə maaşları haqqında parlament Aparatının müvafiq şöbəsi tərəfindən ictimaiyyətə rəsmi məlumat verilməsinə baxmayaraq, bəzi qərəzli dairələr tərəfindən bu cür yalan iddiaların irəli sürülməsində məqsəd ictimai rəyi çaşdırmaq, Milli Məclisin nüfuzuna xələl gətirməkdir.

Bir daha qeyd edirik, "Milli Məclis deputatının statusu haqqında" qanunun 21-ci maddəsində qeyd edilib ki, Milli Məclisin Sədri 2 475 manat miqdarında aylıq vəzifə maaşı alır. Milli Məclis Sədrinin birinci müavini Milli Məclis Sədrinin aylıq vəzifə maaşının 90 faizi (2 227,5 manat) , Milli Məclis Sədrinin müavini - 85 faizi (2 103,75 manat), Milli Məclisin komitə və komissiya sədri - 80 faizi (1 980 manat), Milli Məclisin komitə və komissiya sədrinin müavini - 75 faizi (1 856,25 manat), Milli Məclisin deputatı isə Milli Məclis Sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında (1 732,5 manat) aylıq vəzifə maaşı alır.

Bundan əlavə, Milli Məclisin Sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komitə və komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatları deputatlıq səlahiyyətlərinin yerinə yetirilməsi ilə əlaqədar xərclərin ödənilməsi üçün vəzifə maaşlarının 50 faizi məbləğində vergilərdən azad olunan aylıq pul təminatı alırlar.

**Kənan**

## "Prezidentin tənqid etdiyi məmurların müdafiəsinə qalxıblar"

### Millət vəkili Zahid Oruc: "Təbii ki, hansısa sahə tənqid oluna bilər və bu, cəmiyyətin gözü qarşısında olmalıdır"



**Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində bəzi yüksək vəzifəli məmurları tənqid edib: "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm. Ona görə hərə otursun yerində, öz işi ilə məşğul olsun".**

Ölkə başçısı qeyd edib ki, Şuşanın ərazisinin ölçüsü 300 hektardır:

"Mən qoymamışam ki, bir dənə daş daş üstə qoyulsun. Çünki birinci təhlil aparmalıyıq. Ondan sonra o tarixi binaları bərpa etməliyik, necə bərpa etməliyik, bunu mən də deyə bilmərəm, mütəxəssislər deməlidir, biz indi cəlb etmişik.

Mən indi müvəqqəti idarəetmə strukturu yaratmışam. Nəyə görə? Çünki mən görürəm, bilirəm, artıq gözlər tikilib oraya. İndi oraya elə bil ki, hücum gözlənilir, zəbtetmə hücumu. O torpaq mənim, o torpaq sənin, oranı mənə, buranı sənə. Amma mən bunların hamısını cəzalandıracağam, hamısını, özü də necə lazımdır. Otursun hərə öz yerində öz işi ilə məşğul olsun. Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək".

**Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc Prezidentin çıxışını "Şərq"ə dəyərləndirib:**

"Dünyada "məmur" sözü özözlüyündə bir fenomendir. Hansı idarətmə forması və kursun seçilməsindən asılı olmayaraq bu termin bir çox məna daşıyır. Məmur ictimai-siyasi münasibətlər sistemində müxtəlif xarakterli dinamikadan keçir. Yəni ona heç vaxt yalnız yüksək münasibət olmur. Vətən müharibəsində qələbə cəmiyyətdə tələbləri dəyişdi. Yeni milli kimlik, siyasi yanaşmalar və münasibətləri hamı istəyir. Vətəndaş daha yaxşı yaşamağa çalışır, yeni istəklər ortaya gəlir. Qalib xalq anlayışı özündə bir çox məqamları birləşdirir: istəyirlər ki, sosial həyatlarında-əmək haqqı və pensiyalarında qalib bir millətin göstəricilərini əldə etsinlər".

**Z.Oruc qeyd edib ki, ölkə başçısının iradlarlarından sonra maraqlı bir məqam ortaya çıxıb:**

"Dünənə qədər bir qisim qüvvə məmurları tənqid edirdilər, lakin onlar indi sanki həmin adamların müdafiəsinə qalxıb. Savaşı qazanan sərkərdə xalq tərəfindən böyük siyasi imic əldə edir, o, nüfuzunun ən yüksək çağındadır. Bu halda deyilən aralıq mülahizələr, şərh və təhlillərin əsası yoxdur. Təbii ki, hansısa sahə tənqid oluna bilər və bu, cəmiyyətin gözü qarşısında olmalıdır. Bəs, demokratik idarəçiliyin ayrılmaz hissəsi bu deyildimi? İndi həmin adamlar məmurlarla bağlı tənqidlərindən geri durublar".

**Yeganə Bayramova**



## Vətən müharibəsində şəhid olan əsgər İmişlidə dəfn edilib

**Vətən müharibəsində şəhid olan əsgər İmişlidə dəfn edilib.**

APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Vətən müharibəsində şəhid olan İmişli rayonu Əliqulular kənd sakini, 2000-ci il təvəllüdlü, əsgər İsmayılov Rəcəb Nəcəf oğlunun nəşi bu gün doğulduğu Əliqulular kəndinə aparılaraq torpağa tapşırılıb. Onun oktyabrın 30-da Laçının Güləbird kəndində gedən döyüşlərdə şəhid olduğu bildirilir.

R.İsmayılov ölümündən sonra "Cəsur döyüşçü" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

**Allah rəhmət eləsin!**

## Birgə təlimlər aqressiv ölkələrə mesajdır

### General Özgür Tor: "Belə təlimlər savaş xəbərçisi deyil"



**Türkiyənin Qars şəhərində Azərbaycan Ordusunun bölmələrinin də iştirakı ilə keçiriləcək "Qış-2021" təlimlərinə başlanılıb.**

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin "Twitter" hesabında paylaşım edilib. "1-12 fevral tarixlərində Qarsda keçirəcəyimiz "Qış-2021" Türkiyə-Azərbaycan birgə təlimlərinə hazırlıqlar davam edir.

Hərbçilərimiz hazırlıq çərçivəsində minaatanlardan atışlar icra ediblər", - deyə Türkiyə MN-dən bildirilib.

Əlbəttə, birgə təlimlər hər şeydən əvvəl iki ölkənin qardaşlığının bariz nümunəsi və dünyaya mesajdır.

**Amma başqa məqsəd də varmı? Bax, bu sual çoxlarını düşündürür. Türk general Özgür Tor bu barədə "Şərq"ə danışarkən hansısa müharibə ehtimalını istisna edib:** "Belə təlimlər savaş xəbərçisi deyil. Sadəcə ölkələr arasındakı əlaqələr güclənir. Həmçinin aqressiv ölkələrə mesaj verilir. Bu, bərabərlik mesajıdır. Həm də sülhün yolu müharibəyə hazır olmaqdan keçir. Yəni belə təşəbbüslər savaş yox, sülh üçündür".

**Kənan**

## Bakıda avtobus marşrutlarının informasiya sistemi hazırlanacaq



**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə məxsus "Avtomobil Nəqliyyatı ilə Daşımaların Təşkili" MMC avtobus marşrutlarının informasiya sisteminin (o cümlədən, interaktiv xəritənin) hazırlanması üçün kotirovka sorğusu elan edib.**

Sputnik Azərbaycan-ın məlumatına sorğuda iştirak etmək istəyənlər təkliflərini bu gün saat 11:00-a qədər Bakı şəhəri, Binəqədi rayonu, Ağasadıq Gəraybəyli küçəsi, 29 ünvanına təqdim edə bilərlər. Maraqlanan təşkilatlar (012) 561-76-03 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

# ASALA üzvləri Qarabağa doluşur

“Pis sürprizlər ola bilər”

**İlham İsmayıl: “Monitorinq Mərkəzi də onların qarşısını ala bilməyəcək”**



**”Əsas mübarizə indi başlayır. Fransada yetişdirilən erməni terrorçular bölgəyə daxil olmağa başlayıb. Ona görə əsla eyforiyaya qapılmamalı və gözümüzü dörd açmalıyıq”.**

**Bu sözləri ehtiyatda olan türk polkovniki Mithat Işık dünən “Şərq”ə müsahibəsində deyib.**

Onun fikrincə, ruslar Xankəndinin Ermənistanda qalmasını istəyirlər və bütün imkanları ilə buna çalışırlar.

Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl Mithat Işıkın xəbərdarlığını şərh edərkən səslənən fikirlərə etinasız yanaşmağın pis sürprizlərə səbəb ola biləcəyini söylədi: ”Bir neçə ildir fəaliyyətini dayandıran ASALA terror təşkilatı müharibədən dərhal sonra yenidən toplaşdı. İnqilabi şura ”əməkdaşlarını” Qarabağa göndərmək barədə qərar qəbul etdi.

Hətta rus sülhməramlıları ilə münasibətin qurulması da nəzərdə tutulub. Laçın dəhlizinin yuxarısındakı Azərbaycan- Ermənistan sərhədinə nəzarət edilməməsi, həmçinin 5 kilometrlik Laçın dəhlizinin açıq qalması istənilən terrorçunun bura gəlməsinə şərait yaradır.

Yaradılan Monitorinq Mərkəzi də onların qarşısını ala bilməyəcək. Həmin qurum sadəcə qarşıdurmanın yaranmaması üçün nəzərdə tutulub, amma Ermənistan şəxsiyyət vəsiqəsinə sahib, mülki geyimli şəxsə heç kim heç nə deyə bilməz. Yəni Monitorinq Mərkəzi də məsələni köklü həll etmir”.

**İ.İsmayılın sözlərinə görə, təxribat ehtimalı var:** ”Terrorçular müharibə üçün gəlmirlər. Onların işi terror aktı törətməkdir. Odur ki, Qarabağdakı ASALA üzvləri Azərbaycan ərazisinə keçərək həm hərbçilərə, həm də mülki şəxslərə qarşı terror törədə bilərlər”.

**Kənan**

# “Türkiyə xarici siyasətində yeni yol tutub”



## Turab Rzayev: “Yəni həm Rusiya ilə problemlərini həll edir, həm də ABŞ və Avropa ilə münasibətlərini qoruyur”

**Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Macarıstanda səfərdədir. Bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb. Xəbərə görə, onu paytaxt Budapeştin hava limanında Macarıstan Müdafiə naziri Tibor Benko qarşılayıb. Nazirlər ilk növbədə paytaxtdakı Türk Şəhidliyini ziyarət ediblər. Buradakı anım mərasimində Hulusi Akar, ardınca isə Tibor Benko Birinci Dünya müharibəsi Qalisiya cəbhəsi şəhidlərinin xatirəsinə ucaldılan abidənin önünə əklil qoyublar. Sonra nazirlər Gül Baba türbəsini ziyarət ediblər.**

Xatırladaq ki, Hulusi Akar dünən Almaniyaya rəsmi səfər etmişdi. Türkiyənin milli müdafiə nazirinin ”Avropa türnesi” beyinlərdə sual işarəsi yaradır. **Türkiyə müdafiə nazirinin türnesi nəyə hesablanır? Odur ki, ”Şərq” qəzeti olaraq siyasi analitik Turab Rzayevin fikirlərini öyrəndik. Onun sözlərinə görə, Türkiyə özünə ”hava yastığı” yaradır:** ”Türkiyənin Qərb ölkələri arasında özünəməxsus yeri var. ABŞ-da yeni adminitrasiyanın qurulmasından sonra beynəlxalq diplomatiyada vəziyyət dəyişib. Rusiya Qərbə qarşı mübarizə aparmaq üçün Türkiyə ilə daha mehriban münasibətlər qurmalı, hətta onun şərtlərinə əməl etməlidir. Bu isə rəsmi Ankaranı regionda daha əhəmiyyətli edir. ABŞ-İran münasibətlərinin çözülməsi rəsmi Tehranın da regional gücünü artırır. Bundan sonra Ərəb ölkələri İsraillə yaxınlaşacaq. Amma İsrailin də daxili vəziyyəti yaxşı deyil. Ona görə Ərəb ölkələrinin çoxu Türkiyə ilə yaxınlaşmağa başlayacaq. Beləliklə, qardaş ölkə aktiv güclərdən birinə çevriləcək. Lakin həm də təhlükələr artacaq. Türkiyənin hazırkı siyasəti də potensial təhlükələri azaltmağa hesablanıb. O, dostlarının və ya ortaq maraqları olan ölkələrin sayını artırmaqla ehtimal olunan təzyiqə qarşı mübarizə aparmaq niyyətindədir”.

*T.Rzayev, həmçinin bildirdi ki, Türkiyə öz xarici siyasətində tamamilə yeni yol tutub:* ”Rəsmi Ankaranı çox çətin mərhələ gözləyir. Əgər bütün addımlarını dəqiq hesablasa, üç materikin birləşdiyi nöqtədə ən güclü ölkələrdən biri, bəlkə də birincisi olacaq. Əks halda isə təzyiqlərlə mübarizə aparacaq. Türkiyə hazırda çox soyuqqanlı davranır və hibrit siyasət yeridir. Yəni həm Rusiya ilə problemlərini həll edir, həm də ABŞ və Avropa ilə münasibətlərini qoruyur. Əslində onun belə diplomatiya sərgiləyəcəyi gözlənilmirdi. Çoxları Türkiyənin ”tufan qoparacağını” gözləyirdi. Türkiyə və Rusiya nüfuz bölgüsü uğrunda mübarizə aparsa da, biri-birlərinin rollarını da başa düşürlər. Kreml Türkiyəni qəbul etmək istəməsə də, başqa alternativi yoxdur”.

**Ekspert inkişaf edən proseslərin Azərbaycana təsirindən də danışıb:** ”Əlbəttə, Türkiyənin güclənməsi bizim də xeyrimizədir. Bizim gücümüz birliyimizdədir. Bunu Qarabağ müharibəsi zamanı da gördük. Rus və erməni siyasətçilərinin əsas səhvi rəsmi Ankaranın belə fəal olacağına inanmamaları idi. Artıq ”Türk əsri” başlayıb. Türkiyə asanlıqla digər ölkələrə inteqrasiya edə bilər. Çünki neft, qaz alıb, başqa məhsullar satır. Bizim də qarşılıqlı əməkdaşlıq edə biləcəyimiz çox böyük sahələr var”.

**Kənan**

# Lənkəranskinin sağ olması iddiası cəfəngiyyatdır






## Sadəcə olaraq qorxu yaratmaq üçün belə şayiələr yayırlar

2016-cı il avqustun 18-də İstanbulda qətlə yetirilən azərbaycanlı kriminal avtoritet Rövşən Lənkəranskinin sağ olduğuna dair müxtəlif iddialar var. Bununla bağlı sosial şəbəkələrdə zaman-zaman müzakirələr aparılır.

Xatırladaq ki, Lənkəranskinin ölümündən bir müddət sonra da belə mülahizələr irəli sürülürdü. Ehtimallardan biri kimi Rövşənin güllələndiyi maşında heç bir qan izinin olmaması göstərilirdi. Bu da nüfuzlu qanuni oğrunun hələ yaşadığı barədə ehtimallara yol açıb. Digər iddia mərhumun məzarının üstünün betonlanmasıdır. Dini ritualları görə, məzarın betonlanması qadağan olunmayıb və bəzi yerlərdə bu dəfn ənənəsinə rast gəlinir. Lakin Lənkəranda qəbrin betonlanması çox az rast gəlinən haldır.

**İddialara dair fikirlərini “Şərq”lə bölüşən Penitensiar xidmətin sabiq rəisi Məmməd Zeynalov Lənkəranskinin sağ olduğuna inanmadığını söyləyib:** ”İndiki zəmanədə bu, mümkün olan hal deyil. Hazırda ucət məsələsi o qədər güclüdür ki, ona görə də səslənən iddialar cəfəngiyyatdır.

Rövşənin sağ olduğunu iddia etməklə qorxu yaratmaq istəyirlər. Yəni ”Hələ də gücümüz var, başçımız ölməyib, sağdır”.

Lənkəranskinin ölümündən sonra Moskva bazarlarına nəzarətin kimlərdə olmasına gəlincə, M.Zeynalov bildirib ki, bu nəzarət hər zaman azərbaycanlılarda olub, yenə də azərbaycanlılardadır:

”Səhv etmirəmsə, oradakı bazarlara əsasən şəmkirlilər nəzarət edir. Çünki onlar böyük bir qüvvədirlər. Onlara say və mövqe hesabı ilə çatmaq mümkün deyil”.

**Yeganə Bayramova**

# Navalnının həbsi Rusiyada vəziyyəti gərginləşdirəcək

Qərar iqtisadi sanksiyalara və Qərbin siyasi təzyiqlərinə yol açacaq



**Moskvanın Simonovski məhkəməsi müxalif bloger Aleksey Navalnı barəsində yeni qərar qəbul edib. Rusiyaya geri dönərkən hava limanında saxlanılan və barəsində şərti cəza verilən Navalnı 3 il 5 ay müddətinə azadlıqdan məhrum olunub.**

Hakim Natalya Repnikova bildirib ki, müttəhimin ev dustaqlığında keçirdiyi 12 ay təyin edilmiş cəzadan çıxılacaq. Əgər müdafiə tərəfi qərara etiraz etməzsə, Navalnı 2 ildən çox həbsxanada yatacaq. Qeyd edək ki, Aleksey Navalnının qardaşı Oleq Navalnı da 3,5 il müddətinə azadlıqdan məhrum edilib. Navalnının ailəsi 2008-ci ildən 2013-cü ilə qədər fırıldaqçılıq yolu külli miqdarda pul mənimsəməkdə və qarətdə ittiham olunurdu. Bəzi politoloqların fikrincə, Navalnının həbsi ölkədə onsuz da gərgin olan vəziyyəti bir qədər də kritikləşdirə bilər.

**“Cənubi Qafqaz” Sülh və Münaqişə İnstitutunun rəhbəri Məhəmməd Əsədullazadə ”Şərq”ə açıqlamasında bildirib ki, Navalnının həbsi etirazların genişmiqyaslı hal almasına gətirəcək. Analitikin fikrincə, həbs qərarı Kremlin anti-demokratik siyasətinin, öz alternativinə qarşı dözümsüzlüyünün nəticəsidir:** ”Qərar Rusiyaya qarşı iqtisadi sanksiyalara və Qərbin siyasi təzyiqlərinə yol açacaq. Navalnını həbs etdirənlər ölkədə etirazların nizamsız olmasında, kortəbii davam etməsində maraqlıdır. Kütləvi etirazlar yeni siyasi böhrana və qarşıdurmalara səbəb ola bilər. Qərbin müəyyən dairələri etirazlara dəstək verməklə Rusiyada yeni siyasi mərhələnin başlanmasına zəmin yaratmaq istəyəcəklər. İstənilən halda vəziyyət gərginləşəcək”.

**İsmayıl**

**Şuşaya səyahətə çıxdıq. Yenə də şuşalı Kərim Kərimli ilə. O danışdı, mən qeydə aldım; sözlü, qələmli səyahət oldu. Bizi Şuşa yoluna istiqamətləndirən də məlumdu - Prezident İlham Əliyev və Prezidentin bir neçə gün öncə məmurlara sərt xəbərdarlığı, "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar şəhəri yox!" nidası. Prezidentin o çıxışında bir çox məqamlar vardı: Şuşanın bərpası, şəhərin tarixi görkəminin özünə qaytarılması, Şuşanı Azərbaycan mədəniyyətinin beşiyi kimi tanıtmaq. Şuşalıların evlərinə qayıdışı... Prezident Şuşanın bərpası ilə bağlı memarlardan, sənət adamlarından ibarət nümayəndə heyətinin əraziyə təhkim edildiyini, onların irəli sürəcəyi təkliflərin dəyərləndiriləcəyini də dedi.**





# "Şuşada eynək taxan adam görməzdiniz"

## "Hacıqulunun evi məşhurdu, 19-cu əsrdə tikilib, 3 mərtəbəli 47 otaqdan ibarət mülk olub"

*Bəs Şuşalılar nə düşünür? Əziz şəhərləri ilə bağlı təklifləri nədi? Jurnalist dostumuz, yazıçı-publisist Kərim Kərimli ilə bu haqda danışdıq. Öncədən bunu da deyim ki, Kərim bəylə hər dəfə Şuşa haqqında söhbət edəndə - fərqi yoxdu, bu, Şuşamızın mənfur düşmənin işğalında olduğu illər idi, yaxud zəfər çalmış, Şuşamızı düşmən tapdağından artıq azad etdiyimiz hazırkı qürurlu çağımız - Şuşanı ömründə bir dəfə də görməmiş adam da sanki şəhəri təpədən-dırnağa gəzib-dolaşır. Kərim Kərimli Şuşanı küçə-küçə, ev-ev, dalan-dalan tanıyır. Bəlkə də çox şişirtmə görünəcək, amma deyim; Kərim bəy Şuşanın hansısa hasarından qopmuş daşı aparıb tam düşdüyü yerə qoyacaq Şuşada. Belə insanları Şuşanın bərpasına cəlb etmək lazımdı. Mütləq lazımdı! Kərim Kərimli söhbətə şuşalılara xas giriş etdi:*

- Əvvəlcə bir lətifə danışım. Qəşəm Aslanov vardı. Şuşalılar hamısı onu tanıyır. "Raykom"un katibi idi. Çox da işlək adam idi. Civə kimi. Həm də sərt adam idi. Təsərrüfatları, nə bilim, fermaları qəfil yoxlayardı, kimin əyər-əskiyi var, bilsin. Şəhərdə ondan icazəsiz heç kim bir iş görə bilməzdi. Şuşanı qoruyurdu. Bir gün Qəşəm Aslanov Quşçuluq təsərrüfatının qarovulçusunu "imtahan" edir. Gedir qarovulçuya deyir ki, bəs, oğlumun toyudu, Bakıdan qonaqlar gələcək, mənə 25-30 yaxşı çolpa ver. Qarovulçu and-aman edir ki, sata bilmərəm. Bu üz vurur, o geri durur. Axırı, qarovulçu buna deyir ki, Qəşəm Aslanovun adını eşitmisən? O bilsə ki, mən burdan sənə çolpa satmışam, mənim də anamı ağladar, sənin də... Şuşanın ərazisinin zəbt edilməsi, orda hansısa tikililərin inşası, kimlərinsə Şuşaya "göz qoyması", bunun hamısı kadrlardan asılıdı. Vəzifəyə təyin olunan məmurlar vicdanla, namusla işləsələr, heç kim Şuşada özbaşınalıq edə bilməz. Şuşada tikiləcək hər bir tikilinin, hər bir binanın, obyektin mütləq sənədi olmalıdır. Bütün tikililər sərəncam əsasında tikilməlidir. Prezident Şuşaya xüsusi nümayəndə təyin edib. Ondan da çox şey asılı olacaq. Rayon rəhbəri güclü olmalıdır və təzyiqlərin qarşısında dayanmağı bacarmalıdır. Yerli inzibati rəhbərlik Prezident tərəfindən onlara göstərilən etimadı doğrultmalıdı. İşğal illərində ermənilər Şuşada çox dağıntılar edib. Necə gəldi tikiblər, səliqəsiz, zövqsüz, necə gəldi. Ermənilər Şuşanın sahibi deyildilər. Özləri də bunu bilirdi və ona görə də şəhərin taleyi onları maraqlandırmırdı. Sənədsiz-sübutsuz tikinti aparırdılar. Amma biz Şuşanın sahibiyik. Şuşa bizim əzizimiz, doğmamızdı. Onun qədrini bilməliyik. 12 metrdən alçaq tikililərə sərəncamsız icazə verilir. Amma 12 metrdən yüksək tikililər mütləq qaydada sənədləşmə əsasında aparılmalıdır. Hər tikili üçün texniki şərt tələb olunmalıdır. Bu gün üçün Şuşada 210 tarixi abidə rəsmi qaydada siyahıya alınıb. Şuşanın tarixi abidələri bundan qat-qat çoxdur. Amma dağılmış tarixi abidələr var. Hansılar ki, müəyyən hissəsi dağıdılıb, yeri, tikilmə tərsi bilinir, məlumdur, onlar əvvəlcə olduqları kimi bərpa edilməlidir. Məsələn, Şuşada Hacıqulunun evi məşhurdu. 47 otaqdan ibarət mülk olub, 3 mərtəbəli. 19-cu əsrdə tikilib. Təsəvvür edin, mülk nə böyüklükdə idisə, daxilində bir neçə idarə, hətta müəssisə yerləşirdi. Deyirdilər, bu mülkün özülü qurğuşundan tökülübmüş. Sonra, Şuşanın Qala divarları. Bu qala divarlarının daşını Pənah xan İrandan gətirməmişdi ki! O qala yerli hörgü daşından tikilmişdi. Qala divarlarının da dağılmış yerləri var. Dağıntıya məruz qalmış hissələr yenə də yerli hörgü daşıyla bərpa edilməlidir. Üzeyir bəyin evinin bir hissəsi qalıb. Bu ev necə olub, fotoları da var, arxiv şəkilləri var, şuşalılar da bilir. O ev necə idisə, elə də bərpa edilməlidir.

**- Kərim bəy, Şuşanın tarixi simasının qaytarılmasında yəqin çətinlik olmayacaq. Siz deyən kimi, fotolar var, arxiv sənədləri, şuşalılar, şükür Allaha, salamatdılar, bilirlər. Məsələ həm də Şuşanın mədəniyyət paytaxtı kimi dünyaya tanıdılmasıdır...**

- Sözsüz. Əlbəttə. Mən tam əminəm ki, Şuşa bərpa olunduqca, dünyanın hər yerindən onu görməyə gələcəklər. Biz Şuşanın bəşəriyyətə hansı dahiləri bəxş etdiyini onlara göstərməli, bildirməliyik. Şuşada doğulan, Şuşanın yetişdirdiyi dahiləri sadalamağa qalxsaq, gecə düşər. Şuşada evi, baba ocağı olan dahilərin evləri mütləq bərpa edilməlidir. Üzeyir bəyi dedik. Məsələn, mən, Mir Möhsün Nəvvabın adını çəkmək istəyirəm. Bu insan dahi olub. Şair, musiqiçi, muğam bilicisi, muğamı araşdıran, astronom, bioloq, kimyagər, filosof. Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab" əsərində Qarabağda doğulmuş məşhur 100 şəxsin adı çəkilir. Bilirsiniz də, Nəvvab Şuşada "Məclisi-fəramuşan" ədəbi məclisi, "Məclisi-xanəndə" - musiqiçilər məclisi təşkil edirdi. Nəvvabın evi Şuşada məşhur idi. Bilmirəm, indi o ev durur, ya dağılıb. Amma onu mütləq bərpa etmək lazımdı və dünyaya göstərmək lazımdı ki, Şuşada belə bir filosof yaşayıb. Əlbəttə, mən Şuşanın tarixi simasının mövcud olduğu kimi saxlanmasının, dağıdılmış abidələ-

### Vicdanla, namusla işləsələr heç kim Şuşada özbaşınalıq edə bilməz

rin əvvəlki görkəminə qaytarılmasının tərəfdarıyam. Elə sənət sahələri var ki, onların banisi Şuşada doğulub, orada yaşamış insanlardı. Onlar mütləq tanıdılmalıdır. Məsələn, Əhməd bəy Ağaoğlunun Şuşadakı atababa evi durur. O da bərpa olunmalıdır. Əhməd bəy Ağaoğlu kimdir, Azərbaycan üçün, türk dünyası üçün hansı xidmətləri olub, biz bilirik, başqalarına da bildirməliyik. Bu dahi şəxsiyyətlər haqqında Şuşaya gələn hər adam məlumat almalıdır. Hansı şəxsiyyətin evi, ata ocağı qalıbsa, bərpa edilməlidir. Evi, ata ocağı qalmayanlar da "Şuşa dahiləri" sırasında yer almalıdır.

**- Səhv etmirəmsə, siz bir dəfə demişdiniz ki, Şuşa qəbiristanlığında araşdırma aparmısınız. Və orada 19-cu əsrin birinci yarısına aid erməni məzarı yoxdur.**

- Biz Şuşa qəbiristanlığındakı başdaşlarında həkk olunan doğum-vəfat tarixlərinə baxmışdıq. Məsələn, Mir Möhsün Nəvvabın doğum tarixi 1833-cü il göstərilir. Qarabağ xanı Pənahəli xan Cavanşirin ölüm tarixi 1763-cü il göstərilir. Düzdür, Pənahəli xanın məzarı İmarət qəbiristanlığındadı, yeni Şuşada deyil. Amma bunu ona görə deyirəm ki, nə Şuşa qəbiristanlığında, nə də Ağdam - İmarət qəbiristanlığında siz 18-ci əsrdə yaşayıb vəfat etmiş erməninin qəbrinə rast gələ bilməzsiniz. Erməni qəbirləri ancaq 19-cu əsrin ikinci yarısından və bir də 20-ci əsrə aid qəbirlər idi. O da vəfat tarixləri ancaq. Şuşada hansısa erməni "dahisi"nin heykəlinə də rast gəlmək mümkün deyildi. Çünki belə adamları yox idi. Kimin büstü vardı, "26 Bakı komissarları" arasında olan 2 erməni daşnakın. Vəssalam. Biz bilirik ki, ermənilər Qarabağa gəlmədir, amma bunu dəlillərlə, sübutlarla dünyaya göstərməliyik. Neçə il əvvəl, Almaniya səfirliyindən mənə zəng etmişdilər. Qarabağ, Şuşa barədə bəzi məlumatları soruşurdular, mən də cavab verirdim. Mənə dedilər ki, sizi səfirliyə dəvət edirik, gəlin, amma gələndə o kitabı da gətirin. Təəccüb etdim ki, hansı kitabı?! Dedilər, indi hansı kitabdan nümunələr gətirdiniz? Dedim, heç bir kitab yoxdu, bildiklərimi danışıram. Sonra daha dəvət etmədilər. Başa düşdüm ki, deməli, bunlar məlumatları, bilgiləri yazılı, kitab şəklində istəyirlər.

**- Siz Şuşa haqqında elə dəqiq məlumatlar verirsiniz ki, hesab ediblər yəqin hansısa kitaba istinad edirsiniz... Təvazökarlıq etməyin, amma Şuşanın bərpasında sizin kimi insanlar iştirak etməlidir.**

- Şuşanı tanıyanlar, ora bələd olanlar çoxdur. Prezident də çıxışında dedi ki, bu işə mütəxəssislər cəlb olunub, birbaşa cənab Prezidentin özünə məlumat verəcəklər, nə, harda, necə bərpa olunsun. Layihələr təqdim olunacaq. Yəni Şuşada pərakəndə, qaydasız inşaat aparılmayacaq. Bu, təbii ki, hamımızı sevindirir.

**- Başqa, siz Şuşada nələrin bərpa olunmasını təklif edərdiniz?**

- Şuşada "Qarabağ" mehmanxanası vardı, qarşısında olduqca gözəl, sözlə tərifi mümkün olmayan dərəcədə füsunkar bağ vardı, adına "Güllü bağ" deyirdilər. O bağda vaxtilə Xan Şuşinskinin daim əyləşib qəlyan çəkdiyi skamya vardı. Şuşalılar bilirdilər ki, Xan əmi o skamyada əyləşərmiş, gəlib-keçənlər onunla ehtiramla salamlaşarmışlar. Mən çox istərdim ki, vaxtilə Xan əminin əyləşib qəlyan çəkdiyi skamya yenə o bağa qoyulsun və qeyd edilsin ki, dünyada ən yüksək səs tembrinə malik şəxsiyyət bu bağda dincəlib. Şuşa möcüzələri çoxdu. Şuşada Mineral Sular qalereyası vardı. Bir krandan buz kimi su axırdı, bir krandan kükürdlü su axırdı, başqa krandan bir ayrısı. Məşhur "Şırlan su" da Şuşada idi. Şuşanın Turşsuyu min dərdin dərmanı idi. Şuşada eynək taxan adam görməzdiniz. Şuşalılar Turşsuda üzlərini yuyurdular, suyu gözlərinə də çiləyirdilər. Ona görə gözlər ziyasını itirmirdi. Bayaq Mir Möhsün Nəvvabı xatırladıq. Deyilənə görə, Mir Möhsün Nəvvab təxminən Cıdır düzü tərəfdə, xüsusi bir hava dəhlizinin olduğunu kəşf edibmiş. Hər gün 1-2 saat o dəhliz üstündə əyləşərmiş. Günün müəyyən vaxtında Topxana tərəfdən əsən küləyin gətirdiyi havanı ciyərlərinə çəkərmiş. Deyirlər o hava insanı cavanlaşdırır. Sonra Şuşanın Paşalar kəndi var. Orda Əsgər dayının bağı məşhurdu. O bağda bəlkə də minlərlə gül-çiçək bitirdi. Bağa daxil olanda gül-çiçəyin ətri insanı bihuş edirdi. O bağa şuşalılar "İrəm bağı" deyirdilər. Demək istəyirəm ki, biz Şuşanı təkcə tarkamança ilə tanıtmamalıyıq. Şuşa həm mədəniyyətimizin, incəsənətimizin beşiyi, həm də elmin, ürfanın beşiyi kimi tanınmalıdır. Və Şuşa həm də Azərbaycanın döyüş şöhrəti şəhəri olmalıdır. Şuşa Azərbaycan tarixində uğrunda qanlı müharibələr getmiş şəhərdir. Səhv etmirəmsə, Şuşa tarixində 3 qanlı müharibə görüb. Amma hamısında da biz qələbə çalmışıq. Ola bilsin, işğal müddətləri fərqli olsun, lakin nəticədə Şuşa həmişə Azərbaycanın olub, Azərbaycan qalib gəlib. Məsələn, adətən Ağa Məhəmməd Şah Qacarı istilaçı, işğalçı kimi qələmə verirlər; Qarabağ xanına məktub göndərdi, Molla Pənah Vaqif cavab yazdı, Şuşaya hücum etdi... Bunlar bəllidir. Amma Qacar da tarixi şəxsiyyətdir. Onunla bağlı da Şuşada xatirə olmalıdır. Bu tarixi də dünya bilməlidir.

**- Kərim bəy, Bakıda Zəfər muzey kompleksi olacaq. Belə təklif də var ki, Vətən müharibəsi igidlərimizin şərəfinə abidə ucaldılmalıdır.**

- Mütləq belə abidə olmalıdır. Mən tarix boyu Şuşa uğrunda gedən müharibələri elə-belə xatırlatmadım. Şusanın Döyüş Şöhrəti Muzeyi yaradılmalıdır və əlbəttə ki, Vətən müharibəsinin, Şuşanı düşmən tapdağından azad etmiş igidlərin, şəhidlərin xatirəsinə abidə ucalmaldır. Qoy Şuşaya gələnlər həm də bu Döyüş Şöhrəti muzeyinə tamaşa etsinlər. Şuşanın mərkəzi hissəsinin olduğu kimi bərpa ediləcəyinə şübhəm yoxdur. Amma şəhərin digər hissələrində, məhəllələrdə yaşamış şuşalıların evləri necə bərpa ediləcək, bilmirəm. Şuşadan 1 ailə çıxmışdısa, indi 1 ailə əvəzinə ən azı 2-3 ailə qayıdacaq. O vaxt ermənilər Xankəndidən 18 minə yaxın azərbaycanlını evlərindən çıxarmışdılar. Onlar Şuşaya gəldilər. Onda Şuşa hələ işğal olunmamışdı. Bu insanları yerləşdirmək üçün "Yeni Xankəndi" qəsəbəsi salındı. Şuşalıların hamısı Şuşaya qayıdacaq, sözsüz. Fikrimcə, Şuşa ətrafında yeni qəsəbə də salına bilər. Çünki əhali artımı da nəzərə alınmalıdır.

**Məlahət Rzayeva**



# Polad Həşimovun qətlində şübhələr hələ qalır

## Sülhəddin Əkbər: "Şübhə üçün ciddi əsaslar varsa, obyektiv araşdırma aparılmalıdır"

General-mayor Polad Həşimovun və digər yüksək rütbəli zabitlərin Tovuz döyüşlərində şəhid olmasının ardından cəmiyyətdə bir sıra iddialar gündəmə gəldi. Həmin dönəmdə generalın olduğu ərazinin koordinatlarının qarşı tərəfə ötürüldüyü, onun vurulmasında bir xəyanətkar əlinin varlığından danışıldı. Hətta cənab Həşimovun ozamankı Baş Qərargah rəisi Nəcməddin Sadıkovla gərginlik yaşadığı, bundan sonra məlum hadisənin baş verdiyi söylənildi.

O vaxt mövzu ilə bağlı mətbuata açıqlama verən keçmiş korpus komandiri, general-leytenant Yaşar Aydəmirov bildirdi ki, erməni ordusu Polad Həşimovun hərəkət trayektoriyasını izləyə bilməzdi: "Ermənilərdə belə dəqiq silahlar yoxdur. Kənardan onlara yardım edilib. General daim qərargahda oturmur. O daima hərəkətdə olur. Tovuzda baş verən təxribat əvvəlcədən hazırlanmışdı. Bu, Ermənistanın işi deyildi. Başqa iri dövlətlərin işidir...".

Azərbaycan İnternet Forumunun prezidenti, "Multimedia" İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz general Yaşar Aydəmirovun fikirlərini şərh edərkən qeyd edib ki, General Aydəmirovun sözlərindən belə güman etmək olar ki, mərhum general Polad Həşimovun və onu müşayiət edənlərin hərəkət trayektoriyası peyk ailəsinin üzvü olan qonşu ölkələrin peyklərinin köməyi ilə izlənib.

Düşünmək olar ki, bu məqsədlə generalın və ya onu müşayiət edənlərin istifadəsində olan xüsusi rabitə vasitələrinə müdaxilə olub. Yeri gəlmişkən, maraqlıdır, görəsən bizim hərbidəki xüsusi rabitə vasitələrimiz hansı ölkənin istehsalıdır və hərbi üçün rabitə infrastrukturunu kim qurub?

Beləliklə, güman etmək olar ki, peyk və rabitə texnologiyalarından istifadə etməklə onların koordinatlarını müəyyən ediblər və bu koordinatlar dərhal, real vaxtda erməni ordusuna yönləndirilib.

Peyklə koordinat müəyyən edib, həmin koordinata zərbə endirmək bir an məsələsidir. Zərbə isə dəqiq olduğundan düşünmək olar ki, general Polad Həşimovun vurulması ilə bağlı bütün hazırlıqlar və müşahidələr öncədən, real vaxtda ermənilərlə qarşılıqlı formada həyata keçirilib".



Eyni zamanda Müdafiə Nazirliyindən iddiaların, ittihamların əsassız olduğu bildirilib. Buna baxmayaraq hələ də məlum olay cəmiyyətdə müzakirə olunur.

**Məsələ ilə bağlı "Şərq"ə danışan keçmiş Milli Təhlükəsizlik nazirinin müavini Sülhəddin Əkbər deyib ki, cinayətə dair ciddi əsaslar varsa, araşdırma aparılmalıdır:** "Bununla bağlı sualınızı Baş Prokrorluğa, Hərbi Prokrorluğa və Müdafiə Nazirliyinə yönəldin. Heç bir istintaq olmadan kiminsə açıqlama verməsi yanlışdır. Dediyim kimi, bu, konkret hadisədir. Şübhə üçün ciddi əsaslar varsa, obyektiv araşdırma aparılmalıdır. Əgər cinayət mövcuddursa, planlaşdırıcıları, təşkilatçıları da qanun qarşısında cəzalarını almalıdırlar. Ayrı-ayrı şəxslərin işi deyil, bunun üçün Baş prokurorluq, Hərbi prokurorluq, Müdafiə Nazirliyinin xususi idarəsi var. Araşdırmamışam, necə deyə bilərəm ki, orda nə baş verib?".

İddialara yenidən cavab almaq üçün Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı ilə əlaqə saxladıq. O, şayiələr üzərindən danışmaq istəmədiyini söylədi.

**Samirə Ərəbova**

---



# "Kəlmeyi-şəhadət gətirdim, gözüm qaralırdı"



## Sabir Dünyamalıyev: "Hələ "narkoz" tam təsir göstərməmişdi, sinəmdəki qəlpələr çıxarılanda hiss edirdim"

**Adətən bəzən məqalələrin ilk cümləsini yazmaqda çətinlik çəkir adam, ya da özünü aciz hiss edir. Hər halda bu hiss yazının baş qəhrəmanının böyüklüyündən irəli gəlir. Həm də tarix yazanlar haqqında nə desək azdır axı. Bəli, bilmədən yenə də sizə, Vətən müharibəsi iştirakçılarının birindən danışacağıq. O, İkinci Qarabağ Savaşının təsadüfən sağ qalan şahididir, yəni qazisidir.**

İgidimizin adı Sabir Dünyamalıyevdir. 19 yaşlı Sabir Ağstafa rayonunun Köçəsgər kəndində dünyaya göz açıb. Səməd Vurğun adına Köçəsgər kənd tam orta məktəbini bitirib, hərbi xidmətə yola düşüb. İdman sahəsində də bir sıra nailiyyətləri olan Sabir əsgərlikdə kəşfiyyatçı kimi seçilib. Sonra Vətən savaşında iştirak edib, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı döyüşlərində vuruşub. Sabir sol qolunu millət, torpaq yolunda qurban verib. Deyirlər, hərbçi dostları arasında onun ləqəbi "Balaca canavar" imiş.

**Sabir deyir ki, çox çətin yollardan keçib, silahdaşları gözünün önündə şəhadətə ucalıb:** "Kəşfiyyatçıydıq deyə, bir məqsədimiz var idi: Ya ölmək, ya da öldürmək. Vətən uğrunda şəhid olmaq ən şərəfli ölümdür. Biz şəhidlikdən deyil, əsir düşməkdən qorxurduq. Şükür ki, Allah mənə düşmənə əsir düşməyi göstərmədi. Dəfələrlə mühasirədən çıxmağı bacardıq".





**19 yaşlı qazi döyüş yolunu və yaralandığı anı belə xatırlayır:** "Ermənistan sərhədinə - Gorusa iki kənd qalmışdı. Bizə əmr gəldi, 2 qrup şəklində irəlilədik. Kənddən əvvəl iki dağ var idi, birincisini düşməndən azad etdik. İkinciyə çatanda gördük ki, həmin ərazi minalanıb. Digər kəşfiyyat dəstəsinin komandiri xəbər etdi ki, mina var, gözləyin. Biz də dağın başında, qayalıqda yerləşdik. Onlar minaları təmizlədilər. Sonra düşmən atəş açmağa başladı. Snayperlə 1 nəfəri vurub, şəhid etdilər. Atışma gedirdi, dağın aşağı hissəsi meşəlik olduğu üçün biz onları yaxşı görmürdük. Bütün silahlardan istifadə edirdik. O an məndə daraq boşaldı, doldurmaq üçün bir az aşağı düşdüm. "Pekaşnik" sağ tərəfdə dayanmışdı. Birinci dəfə yanımıza minamyot düşəndə yaralanmadım. Amma mərmi "pekaşnik"in üstünə düşdü, onun qanı üzümə çiləndi. Atışırdıq deyə, ikinci minamyotun düşdüyünü eşitmədim. Lakin sol qolum yaralandı. Dillənib, snayperçimizə dedim ki, qolumdan yaralanmışam. Məni qorxutmamaq üçün dedi, heç nə yoxdur. Kaskamı, "bronjiletim"i soyundum, silahı yerə qoyub aşağı düşdüm. Əsgər yoldaşım qolumu dərhal "juquta" bağlayıb, 2 km aşağı endirdi, kömək çağırdı. 2 nəfər gəlib, məni apardılar. Özümdə deyildim, gözlərim qaralırdı. Kəlmeyi-şəhadət gətirdim, silahdaşımdan haqqını halal etməsini istədim. Ardınca məni arxa tərəfə keçirtdilər, o an düşmən bizi vurmağa davam edirdi. Mərmi yanımıza düşdüyü üçün sanitarkalar da gələ bilmirdi. Düz 1 saat yerdə qaldım. Yaralılar çox olduğu üçün korpusun kəşfiyyat rəisi sürücüyə bizi aşağı düşürtməsini söylədi. Sanitarkalar da dağın arxasında gizlənmişdilər. Onlar baldırımdan 2 iynə vurdular, ardınca 1 saat yol getdik. Cəbrayılda yarama baxdılar, qayçı ilə paltarımı kəsib müdaxilə etməyə başladılar. Hələ "narkoz" tam təsir göstərməmişdi, sinəmdəki qəlpələr çıxarılanda hiss edirdim. Sonra birdən ayıldığımı xatırlayıram, qulağıma səslər gəlirdi. Gözümü 2 saniyəlik açdım, dedim "Cənnətdə deyiləm ki?". Demə məni vertalyot ilə "Papanin" qospitalına gətiriblər. Dərhal qoluma baxdım, yerində olduğu üçün sevindim. Amma 2-3 gün sonra vəziyyətim pisləşdi, tir-tir əsirdim. Həkimlər qolumun qanqrena verdiyini görüblər. Amputasiyadan başqa yolu yox imiş. Heç mənə demədilər ki, qolunu kəsəcəyik. Lakin belə oldu...".

*Qeyd edək ki, Sabir Dünyamalıyev "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.*

**Samirə Ərəbova**



## Yerevanda yeni etiraz dalğası başlayıb

### Paşinyanın əleyhinə olanlar parlamentin məhkəmə hakimlərinin sayını artırmasını istəmirlər

**Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətdən getməsinə çalışan təxminən 20 siyasi paprtiyanı birləşdirən müxalif "Vətəni xilasetmə hərəkatı" parlament binası qarşısında etiraz aksiyası keçirir.**

Sputnik Azərbaycan-ın məlumatına görə, onlar qanunverici orqanın növbədənkənar iclasına etiraz edirlər. Qıcıqlandıran əsas məsələ erməni millət vəkillərinin digər qanunlarla yanaşı, məhkəmə məcəlləsinə dəyişikləri müzakirə etməsidir.

Yeni dəyişikliklər həbs qətimkan tədbiri də daxil olmaqla yalnız məhkəməyədək icraata nəzarətlə əlaqədar işlərə baxacaq hakimlər institutunun tətbiq edilməsini nəzərdə tutur. Yeni hakimlər əməliyyat-axtarış fəaliyyətinin aparılması üçün icazə müraciətlərinə də baxacaqlar.

Bu dəyişikliklərlə əlaqədar hökumət birinci instansiya məhkəmə hakimlərinin sayını 17-yə çatdırmaq istəyir, bunlardan 8-nin Yerevanda olması nəzərdə tutulur. Apellyasiya məhkəməsinin isə üç ştat vahidi həcmində artırılması planlaşdırılır.

Bundan öncə Ermənistanın sabiq ədliyyə naziri Armine Hovannisyan sözügedən qanun layihəsini "siyasi, antikonstitusional, hüquqa zidd və amoral" adlandırmışdı. O hesab edir ki, "hakimiyyətin sifarişlərini yerinə yetirmək üçün yeni yaradılmış vəzifələrə hökumətyönlü hakimlər seçiləcəklər.



Ukraynanın "Həyat uğrunda müxalifət platforması" partiyası ölkə rəhbəri Vladimir Zelenskinin impiçment prosedurunu hazırlayıb.

# Artıq müxalifət baş qaldırır

## Ukraynanın da, Zelenskinin də vəziyyəti ürəkaçan deyil

V.Zelenskiyə qarşı hazırlanan impiçment proseduru telekanalların bağlanması qərarı ilə bağlıdır.

Qeyd edək ki, Ukrayna Prezidenti Vladimir Zelenski Təhlükəsizlik və Müdafiə Şurasının "112. Ukrayna", "NewsOne (XəbərBir)" və "ZIK" telekanalları ilə bu kanalların sahibi, "Həyat uğrunda müxalifət platforması" partiyasından olan deputat Taras Kozaka qarşı 5 il müddətində sanksiya qərarını təsdiq edib.

Məlum olduğu kimi, bu kanallar müxalifətyönümlüdür və orada tez-tez müxalifət platformadan olan deputatlar çıxış edirdilər.

Kanallara qoyulan sanksiya qərarlı sənəd dərc olunduğu gündən - fevralın 2-dən qüvvəyə minib.

Nəzərə çatdıraq ki, sözügedən telekanallar kabel şəbəkəsi ilə yayımlarını dayandıraraq fəaliyyətlərin yutubda davam etdirirlər.

**Ukraynada baş verən iqtidar-müxalifət qarşıdurması, eləcə də Zelenskinin impiçmenti haqqında tarix üzrə elmlər doktoru, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə danışıb:**

"Ukraynada vəziyyət keçid dövrü yaşadıqlarına görə ürəkaçan deyil. Qərb ölkələrinin dəstəyi ilə orda hakimiyyət dəyişikliyi baş verdi. Rusiya ilə də müharibə vəziyyəti yarandı. Donetsk və Luqansk vilayətində respublika şəklində ayrıca qruplar yarandı. Yəni slavyan xalqı olan Ukrayna ilə Rusiya arasında qatı düşmənçilik yarandı...

Ukraynada vəziyyət həm də ona görə gərgindir ki, rusmeyilli qüvvələr ilə qərbyönümlü qüvvələr arasında konflikt yaranıb. Qərbyönümlü tərəflər qatı millətçi ukraynalılardır. Şərqdə isə Rusiyaya meyli olan əhali dayanır. Ona görə də Ukraynada tez-tez həmin qüvvələr mitinqlər keçirirlər, lap əvvəllər gedib nazirləri otaqlarından çıxarıb özləri otururdurlar yerlərində. Bu artıq demokratiya deyil, ondan istifadə hallarıdır.

Daha sonra, Ukrayna ilə Macarıstan arasında müəyyən bir problem var. Qərbdə etnik-macar azlığı yaşayır. Onların hüquqları ilə bağlı bəzi problemlər də mövcuddur. Bu baxımdan Zelenskinin vəziyyəti elə də ürəkaçan deyil".

**Professor M.Zülfüqarlı deyir ki, V.Zelenskinin demokrat kimi hakimiyyətə gəlməsi ilə hazırkı hərəkəti üst-üstə düşmür:** "Əgər demokrat kimi hakimiyyətə gəlib indi telekanallara məhdudiyyət qoyursa, bu artıq Zelenskinin demokratiyadan geri çəkilməsi kimi başa düşülə bilər. Çünki 4-cü hakimiyyətə hər hansı bir məhdudiyyətin qoyulması demokratiya ilə heç uyğunlaşmır.

Bu da yəqin ki, daxili vəziyyətin gərginliyindən irəli gəlir. Amma biz istəyərdik ki, Ukraynada siyasi böhran tezliklə aradan qalxsın. Rusiya ilə müharibə başa çatsın və qonşularla normal münasibət başlasın.

Ukraynada çox ciddi seçki kampaniyaları keçirilir. Həm prezident, həm də parlament seçkiləri ərəfəsidir. Yəni Zelenski güclü lider kimi yenidən seçilər, ya da bu cür fəaliyyəti ilə reytinqini salar və yerinə başqası seçilə bilər. Onlarda hazırkı vəziyyət-demokratiya keçid mərhələsindədir. Həmin ölkələrdə də həmişə çox böyük gərginliklər yaşayırlar".

**Ağarza Elçinoğlu**

# Beyləqanın icra başçısı şəhid məzarlarına başdaşı qoymayıb



Vətən müharibəsində şəhid olan Beyləqan rayon Əhmədli kənd sakini Orxan Quliyevin başdaşı hələ də qoyulmayıb. Bu barədə şəhidin atası Bəxtiyar Quliyev məlumat verib.

## Natiq Mehdiyev: "Təhlükə bitəndə bəziləri Allahı unudur, hərbçiləri isə ittiham edirlər"

O qeyd edib ki, sözügedən kənddən oğlu ilə birgə üç nəfər şəhid olub və onların da məzar daşları qoyulmayıb: "Biz üç şəhid ailəsi bununla bağlı icra hakimiyyətində olmuşuq. Dünən elə digər şəhid Aqil Hüseynovun atası icra başçısıyla da görüşüb. Başçı bildirib ki, rayondan 200-ə yaxın şəhid var və onların hamısına başdaşını qoymaq onların səlahiyyətlərinə aid deyil.

Bunun üçün pul ayrılmalı olduğunu vurğulayıb. Hökumət, yaxud icra hakimiyyəti bunu etməyəcəksə, biz işimizi bilmək istəyirik. Belədirsə, başdaşını mən qoyum. Oğlum oktyabrın 15-də dəfn edilib. Hələ də başdaşı yoxdur. Bizə əvvəl verilən 3 000 manat yardımın dəfn mərasiminin təşkili üçün olduğunu demişdilər. Mənim oğlum ölkə başçısı tərəfindən "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib. Elə Cəbrayılda da şəhid olub. Subay idi. Qeyd edim ki, bizə dövlət tərəfindən digər ödənişlər verilib". **Qarabağ qazisi, ehtiyatda olan gizir Natiq Mehdiyev baş verənlərlə bağlı "Şərq"ə danışıb:** "Mənim də Qobustanda Mərəzə deyilən yerdə şəhid yoldaşlarım var. Bu yaxınlarda onlarla bağlı məlumat aldım ki, hələ qəbrin üstü götürülməyib və daş qoyulmayıb. Lakin icra nümayəndəliyi məlumat verdi ki, qəbiristanlıq kənddən uzaq bir yerdədi və yolu bərbaddır. Yəni ki, yol hündür təpələrin üstündən keçir, bu vaxtlarda o tərəflər yağışlı, ara-sıra qar yağdığı üçün betonun belə havada quruması bir az çətin olur". **N.Mehdiyev qeyd edib ki, Beyləqan icra hakimiyyəti rayonun ağası deyil:** "Cənab Prezidentimiz demişkən, icra nümayəndələri, bir sözlə, məmurlar xalqın qulluqçusudur. İcra nümayəndələri şəhid və qazilərimizin sayəsində bu gün torpağımız üstündə rahat gəzirlər. Ona görə də qazi və şəhidlərimiz sayəsində yığdıqları vəsaitlə vətən uğrunda həlak olanların baş daşlarını qoydursunlar. Baxın belə icra nümayəndələri şəhid, qazi ailələrini dövlətimizə qarşı qoyurlar. Dövlət təhlükədə olanda insanlar Allahı və hərbçiləri köməyə çağırır. Təhlükə bitəndə bəziləri Allahı unudur, hərbçiləri isə ittiham edirlər. Son vaxtlar gedən söz-söhbətlərdən bunu açıq-aydın görə bilərik: hərbçilərin maaşının endirilməsi də bu qəbildəndir".

**Yeganə Bayramova**



## "Çevriliş cəhdini FETÖ etməyib"

### Türkiyə nazirin sözləri ilə çalxalanır

**Türkiyənin Daxili İşlər naziri Süleyman Soylunun ötən gün TV kanallarından birində səsləndirdiyi fikirlər ictimaiyyət arasında səs-küyə səbəb olub.**

Sputnik Azərbaycan xəbər verir ki, Süleyman Soylu qatıldığı verilişdə qeyd edib ki, Türkiyədə 15 iyul 2016-cı ildə çevriliş cəhdinin FETÖ tərəfindən təşkil edilmədiyini bildirib.

"15 iyulu törədənlər sizi rahat buraxarlarmı? FETÖ törətdi 15 iyulu? 15 İyulu FETÖ törətmədi, sizi rahat buraxmazlar. Ancaq ayaqda sağlam dursanız, rahat olarsınız, bu qədər bəsit", - deyə Soylu qeyd edib.

*Qeyd edək ki, 2016-cı il 15 iyul tarixində İstanbul və Ankarada dövlət çevrilişi cəhdi baş verib. Çevrilişə cəhd edənlərin məqsədi Türkiyədə Ərdoğan hakimiyyətini devirmək idi.*

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Gərginliyi yaradan "Qarabağ klanı"dır

## "Aciz duruma düşən revanşist qüvvələr vəziyyətdən çıxış yolu kimi "günahkar" ovuna çıxıblar"

Azərbaycanın zəfəri ilə yekunlaşan müharibədən üç aya yaxın vaxt keçsə də, Ermənistanda hələ də revanşist düşüncədə qalanlar, savaşın yenidən başlanmasını arzulayan kəsimlər var. Ermənistanda bəzi avantürist qüvvələr və onların nəzarətindəki media qurumları onsuz da acınacaqlı durumada olan erməni xalqının düzgün seçiminə kömək etmək əvəzinə, dövləti növbəti fəlakətə doğru sürükləməyə cəhd edirlər.

Məsələ ondadır ki, erməni siyasi dairələrində, ekspert çərçivəsində faktiki heç nəyi qalmayan bir dövlətin təzədən toparlanaraq Azərbaycana qarşı müharibəyə başlayacağına, "itirilmiş torpaqları" geri alacağına ümid bəsləyənlər var. Həmin qüvvələr sülhdən, qonşu ölkələrlə əməkdaşlığı təcili şəkildə bərpa etməkdən daha çox, yeni müharibə imkanlarından dəm vururlar. Guya, 44 günlük müharibəni uduzan erməni xalqı, hətta erməni ordusu yox, fərasətsiz Baş nazir Nikol Paşinyan və onun hökumətidir. Təsadüfi deyil ki, belə təbliğatın önündə 2018-ci ilin mayında hakimiyyətdən devrilmiş "Qarabağ klanı", revanş hissi ilə alışıb-yanan keçmiş xunta rejimi dayanır. Əvvəllər arxa planda dayanırdılarsa, artıq açıq formada siyasi mübarizəyə qoşulurlar. Hətta daha həyasız tələblərlə gündəmə gəlməyə çalışırlar. Ermənistanın XİN başçısı Ara Ayvazyan Fransa Xarici İşlər Nazirliyinin dövlət katibi Jan Batist Lemuanla görüşdə bildirib ki, Azərbaycanın antiterror əməliyyatı zamanı həbs etdiyi 62 erməni diversantı azad edilmədən regionda kommunikasiyaların bərpa edilməsi qeyri-mümkündür.

Lemuan isə bəyan edib ki, üçtərəfli bəyanat bir sıra məsələləri gündəmə gətirir, amma gündəmə gətirilməyən məqamlar var. Onun düşüncəsinə görə, bəyanatda əksini tapmayan digər məqamlar Minsk qrupu çərçivəsində həll olunmalıdır. Ermənistan tərəfinin əsassız iddiasına görə, Azərbaycanda 235 nəfərə qədər "əsir" var. Guya, onların böyük hissəsi 10 noyabr 2020-ci il bəyanatından sonra "yoxa" çıxıb. Halbuki, ələ keçirilən nə qədər terrorçu varsa, hamısı üçtərəfli razılaşmaya zidd olaraq torpaqlarımızda qalan, yaxud sonradan Azərbaycana göndərilən diversantlardır. Yerevan hökuməti isə 10 noyabr anlaşmasına qanunsuz şərt qoşur, əsassız tələblər irəli sürür. Hətta daha da irəli gedərək 11 yanvarda Moskvada əldə edilmiş razılaşmaya, Rusiya Prezidenti Vladimir Putinin imzası olan sazişə qarşı gedərək nəqliyyat-kommunikasiyaların açılmasının yalnız erməni terrorçuların azad olunması ilə mümkün olduğunu bəyan edirlər. Ancaq əslində ermənilərin özlərinə də yaxşı bəllidir ki, Mehri yolunun açılması 3-5 erməni diversantın taleyi ilə bağlı deyil və olduqca mühüm məsələdir. Yanvarın 30-da Moskvada Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində baş tutan görüş, aparılan müzakirələr və əldə olunan razılaşmalar da göstərir ki, ermənilər arasında regional əməkdaşlığa qarşı çıxanlar olsa da, bu, nəyisə dəyişmək gücündə deyil. Moskva görüşündə əldə edilmiş razılaşmaya əsasən, regionda tamamilə yeni geoiqtisadi mənzərə yaranacaq və nəqliyyat kommunikasiyaları reallaşdırılacaq. Məlumdur ki, Mehri vasitəsilə Türkiyə-Naxçıvan-Azərbaycanın əsas hissəsi, Azərbaycan vasitəsilə Ermənistan-İran və Ermənistan-Rusiya nəqliyyat xətlərinin bərpası nəzərdə tutulub. Düşmən ölkədə mövcud reallığı dərk edən, erməni xalqının rifahının hansı addımlardan asılı olduğunu anlayan sağlam düşüncəli siyasilər də var. Məsələn, "Vətəndaş Müqaviləsi" partiyasını təmsil edən deputat, Ermənistan parlamentinin xarici siyasət komitəsinin üzvü Anuş Beqloyan deyib ki, erməni xalqına növbəti müharibə lazım deyil: "Ermənistanda çoxlu sayda müxtəlif siyasi qruplar var. Amma mən hamını hakim partiyanın, hakimiyyətin, XİN-in, Baş nazirin ofisinin və parlamentin nümayəndələrini dinləməyə çağırıram. Qisasçılıq və ya hər hansı hərbi əməliyyatlar Ermənistanın və erməni xalqının istədiyi şey deyil". Beqloyan etiraf edib ki, Ermənistan mətbuatının monitorinqi nəticəsində hakimiyyətin revanşizm mövqelərində olduğu təəssüratı yarana bilər, lakin bu tamamilə yanlışdır. Xarici siyasət komitəsinin üzvü erməni xalqını "gələcəyə baxmağa", bu və ya digər ərazinin tarixən kimə məxsus olduğu barədə "əbədi müzakirələrdən" imtina etməyə çağırıb. İzah edib ki, belə mənasız yanaşmalar nəticədə müharibəyə gətirib çıxarır. Deputat həmçinin bildirib ki, region ölkələri onun gələcəyi ilə bağlı bütün məsələləri müstəqil həll edə bilərlər. Bunun üçün bütün iştirakçıların etibar etdiyi regional təhlükəsizlik strategiyasını işləyib hazırlamaq lazımdır: "Bunun üçün bizə kənardan hər hansı qüvvələrin olması lazım deyil". Xatırladaq ki, daha öncə Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan və Ermənistan parlamenti sədrinin müavini Lena Nazaryan da oxşar tezislərlə çıxış etmişdi. Nazaryan bəyan etmişdi ki, ermənilərin bir hissəsinin Qarabağ müharibəsində məğlubiyyətə görə revanş götürmək arzusu ziyanlıdır və bunun əvəzində Azərbaycanla uzunmüddətli və hətta daimi sülh əldə etmək lazımdır. Əslində revanşçı qüvvələrin Ermənistanda ciddi dəstək görmədiyi göz qabağındadır. İnsanlar "birləşmiş müxalifət"in təşkil etdiyi, Koçaryan-Sarkisyan klanının isə pərdəarxası dəstək verdiyi etiraz aksiyalarına qoşulmaq istəmirlər.

> "Əgər Paşinyan müxalifətin təzyiqlərinə rəğmən, hakimiyyətini saxlaya bilərsə, erməni xalqı da rifaha qovuşmaq şansı əldə edər"

**Politoloq Tofiq Abbasov "Şərq"ə bildirib ki, Ermənistanı ağır vəziyyətə gətirib çıxaran "Qarabağ klanı"nın addımları olub. Siyasi təhlilçi vurğulayıb ki, "Qarabağ klanı"nın ideoloji və maliyyə qidası ABŞ və Avropa ölkələrində yerləşmiş erməni diasporasından gəlirdi:** "Koçaryan-Sarkisyan klanı Qarabağ münaqişəsi ölüm-dirim məsələsi sayırdı. Yeni ərazi iddiaları, "Böyük Ermənistan" xülyası ilə toplumu idarə edir, insanları təzyiq altında saxlayırdılar. Bu yolla müxalifəti neytrallaşdırırdılar. Lakin Azərbaycan tərəfi 30 illik problemi hərbi və siyasi gücü ilə həll etdi. Aciz duruma düşən revanşist qüvvələr vəziyyətdən çıxış yolu kimi "günahkar" ovuna çıxıblar. Təbii olaraq ilk növbədə Baş nazir Nikol Paşinyanı ittiham edir, onu erməni xalqının düşməni kimi qələmə verirlər. "Qarabağ klanı" Manukyanın 17 qondarma partiyadan ibarət müxalifət blokuna qatılması qərarını alıb. Məqsəd onları öz tərəflərinə çəkmək və revanş iddialarını daha da gücləndirməkdir". T.Abbasovun sözlərinə görə, əgər müxalif qüvvələr növbəti dəfə "Qarabağ klanı"nın oyuna gəlsə, Ermənistan son zərbəni alacaq: "Revanş cəhdləri Ermənistanı irəliyə yox, geriyə aparır. Əgər Paşinyan müxalifətin təzyiqlərinə rəğmən, hakimiyyətini saxlaya bilərsə, erməni xalqı da rifaha qovuşmaq şansı əldə edər. Müşahidələr göstərir ki, erməni xalqı baş naziri devirməyə tələsmir. Bu da ondan xəbər verir ki, erməni ictimaiyyəti qonşu ölkələrlə kommunikasiyaların bərpasının, nəqliyyat dəhlizlərinin açılmasının tərəfdarıdır. Paşinyan nə vaxtsa gedəcək, bütün hakimiyyətlərin sonu var. Amma kommunikasiyalar, yollar, iqtisadi layihələr qalacaq və ilk növbədə erməni xalqının faydasına olacaq. Ermənistanın nicat yolu Moskvadakı üçtərəfli görüşün bütün tələblərinə riayət etmək və dolayı yolla Paşinyanı dəstəkləməkdir. Erməni xalqı ölkəni dağıdan, viran qoyan "Qarabağ klanı"nın vədlərinə etimad etmirsə, öz qətiyyətini ortaya qoymalı, sülh və əməkdaşlığa üstünlük verməlidir. Ümid edirik, ermənilər bu dəfə Koçaryan-Sarkisyan cütlüyünün tələsinə düşməyəcək. Sağlam düşüncə tələb edir ki, dövlətə və xalqa belə gətirən siyasi kursdan, məzaxist yanaşmalardan birdəfəlik uzaq durmaq lazımdır".

**Siyasi şərhçi Anar İmanov isə "Şərq"ə bildirib ki, Ermənistandakı ikili yanaşmalar Yerevan hökumətinin iç üzünü açır. Onun sözlərinə görə, Ermənistanın indiki fəaliyyəti onu məhvə doğru aparır:** "Zəif rəhbərlik heç kimə həqiqəti qəbul etdirə bilmir. Düzgün başa salmır ki, əvvəlki siyasət ölkəni darmadağın edəcək. Rəsmi Bakıdan ancaq sülh dolu mesajlar göndərilir, qonşuluq siyasətindən danışılır. Ermənistan isə israrla onu məhvə aparan yoldan imtina etmir və qonşularla sülh şəraitində yaşamamaq üçün əlindən gələni edir. Bu günlərdə hakim partiyanı təmsil edən deputat Anuş Beqloyanın iştirak etdiyi konfransda Azərbaycanla sülh haqda bəzi fikirləri səsləndirdiyi, qisasdan imtina yolunu təklif etdiyi üçün Ermənistanda etiraz aksiyası keçirildi. 44 günlük dərsi anlamayan, qəbul etməyənlər Ermənistan parlamentinə zibil dolu çantalar atıblar. Ermənistanda bəziləri düşünür ki, əvvəlki kimi hərəkət etsələr, hər şey keçmişdəki kimi olacaq, hamı onları dəstəkləyəcək. Əfsuslar ki, həyat ermənilərə heç nə öyrətmir. Anlamırlar ki, artıq vəziyyət dəyişib, regionda Prezident İlham Əliyevin yaratdığı yeni reallıq var. Bu reallıqda nə qisasa, nə də faşizmə yer qalıb. "62 terrorçu qaytarılsın, Naxçıvana yolu açaq" - çox gülünc yanaşmadır. Ermənilər fakt qarşısındadır, bu mövzu müzakirə olunmayacaq, hər şey Azərbaycanın istədiyi kimi olacaq. Çünki müzakirə, danışıqlar vaxtı bitdi. 30 ilə yaxın nəticəsiz danışıqlar 44 günlük müharibə ilə sonlandı və bu savaşda Azərbaycan qalib gəldi. Ermənistanda bəziləri bunu qəbul etmək istəməsə belə fakt faktlığında qalır. Bundan qaçış yoxdur".

**Analitik vurğulayıb ki, Ermənistanın daha ciddi problemləri var:** "Ağlı kəsən hər kəs ölkəni tərk edir, əsasən Rusiyaya qaçır. İnsanların heç nəyə ümidi qalmayıb, onlar indidən ölkənin gələcəyini görmürlər. Çünki onlar öz faşistlərini, "qisas" arzuları ilə yaşayanları bizdən daha yaxşı tanıyırlar və bilirlər ki, gec-tez indiki siyasət, həmin faşistlərin fəaliyyəti Ermənistanı tamamilə məhv edəcək. Ölkədə bir qrup parazitdən başqa heç kim qalmayacaq. Ermənistan dalandadır və görünən budur ki, bu vəziyyət xeyli vaxt davam edəcək".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Təhlükə bizdən sovuşur



## Hələ ki, Azərbaycanda pandemiya idarəolunan səviyyədədir

İngiltərə alimləri 55 min Covid-19 xəstəsinin məlumatlarını araşdıraraq belə qənaətə gəliblər ki, B117 mutasiyası koronavirusun əvvəlki dəyişikliklərindən fərqli olaraq daha şiddətli simptomlara malik deyil. Ancaq bu yeni növ insanlar arasında daha yoluxucudur. "Kings College"nin tədqiqatçıları da iddia edirlər ki, bu virus orijinal virusdan fərqli olaraq ölümcül deyil.

**Britaniyada yeni yaranan ştamm barədə "Şərq"ə danışan allerqoloq-pulmonoloq Ramin Nəriman deyib.Onun sözlərinə görə,Britaniya ştammı koronavirusun digər ştammları ilə müqayisədə aqressivliyi azdır:** "Amma yayılma sürətinin bir neçə dəfə çox olduğu söylənilir. Əslində bu da əhəmiyyət kəsb edən bir nüansdır. Çünki xəstəliyin sürətlə yayılması o deməkdir ki, qısa zaman müddətində xəstələrin sayı çox olacaq. Xəstə sayı çox olduqca artıq onların çeşidlənməsində, xəstəxanalara yerləşdirilməsində bir sıra problemlər yaranır. Yəni səhiyyə sistemi yüklənir, nəticədə də düzgün istiqamətli yardım göstərilmir və xəstələrin tələf olması artır. Bu baxımdan düşünmək olar ki, əgər koronavirusun Britaniya ştammı yayılsa, yenə də hər hansısa bir problemlərin yaranmasını gözləmək mümkündür.

### Əgər Britaniya ştammı ölkəmizdə yayılsa, səhiyyənin üzərinə çox ağırlıq düşəcək

Düzdür, Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, koronavirusun Britaniya ştammının Azərbaycanda yayılması o qədər də gözlənilmir. Amma Azərbaycan da bir dünyəvi ölkədir, yəni digər ölkələrlə əlaqəsi var. Ona görə də, koronavirusun Britaniya ştammının Azərbaycanda yayılmayacağını əvvəlcədən tam şəkildə inkar etmək mümkün deyil. Digər tərəfdən bir şeyə nəzər yetirmək lazımdır ki, koronavirus aşkarlandığı vaxtdan bu yana dəfələrlə mutasiyaya uğrayıb. Mutasiya nəticəsində bəzi ştammlar da aqressivlik azalıb, bəzilərində isə artıb. Gələcəkdə də Britaniya ştammının belə bir mutasiyaya uğrayıb aqressivlik əldə edəcəyini əvvəlcədən söyləmək mümkün deyil. Əgər Britaniya ştammı doğrudanda sürətlə yayılırsa və mutasiyaya uğrayıb aqressivlik qabiliyyətini artırsa, onda təbii ki, Britaniya ştammına da ehtiyatla yanaşmaq lazımdır".

**Azərbaycanda koronavirusla bağlı vəziyyət gəlincə həkim qeyd edib ki, hazırda vəziyyət çox qənaətbəxşdir:** "Yəni idarəolunan səviyyədədir, sürətlə azalma baş verir. Dünya ölkələrindən, hətta Avropa ölkələri ilə müqayisədə Azərbaycan koronavirusla mübarizədə kifayət qədər ön sıralardadır. Bunu Ümumdünya Təşkilatı da, digər təşkilatlar da dəfələrlə bildirib. Hazırda Azərbaycanda da peyvəndlənmə başlayıb. Habelə, məhdudlaşdırma, karantin qaydaları nisbətən yumşaldılıb. Bütün dünya ölkələrində də karantin qaydaları yumşaldılandan iki-üç həftə sonra müəyyən dərəcədə artım olur , sonra isə stabilləşəmə yaranır. Bu baxımdan da Azərbaycanda yumşaldılmadan iki-üç həftə sonra müəyyən dərəcədə artım olacağını düşünmək olar. Amma düşünmürəm ki, bu say artımı baxımından böyük rəqəmlər olsun, yəni idarəolunacaq səviyyədə olacaqdır. Yeri gəlmişkən, bir nüansı da xatırladım ki, insanlarda belə bir yanlış fikir var ki, vaksinasiyadan dərhal sonra onlar koronavirusa yoluxmayacaqlar və yaxud da ki, xəstələnməyəcəklər. Bu yanlış fikirdir. Yəni koronavirus vaksinasiyası olunduqdan sonrakı 6-8 həftə müddətində antitellər əmələ gəlir və immunitet formalaşır. Bu müddətə qədər vaksinasiya olunmuş insanların xəstələnməsi və yoluxması mümkündür. Ona görə də, vaksinasiya olunan insan vaksinasiyadan sonrakı iki ay müddətində qorunma qaydalarına riayət etməlidir. Peyvəndin nəticəsi hardasa 4 -8 həftədən sonra görünəcək. Çünki ilkin doza vaksinasiyadan sonra immunitetin formalaşması üçün 6-8 həftə çəkir. Bu müddət ərzində də qorunma qaydalarına, şəxsi gigiyena qaydalarına ara məsafəsinə, maskadan istifadəyə xüsusi diqqət yetirmək lazımdır. Düşünürəm ki, ondan sonra vəziyyət stabilləşəcək".

**Aynurə Pənahqızı**



# Sanki həzz alırlar...

## Saxlanan həkim seçilmək üçün vahimə yaradan səs yazısı yayıb

**Son günlərdə sosial şəbəkələrdə insanları olduqca narahat edən səs yazısı yayılıb. Koronavirusun 3-cü dalğasının təhlükəli və qorxunc olacağından xəbər verən səs yazısını yayan şəxsin kimliyi DTX-nın araşdırmaları nəticəsində müəyyən edilib.**

Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkimi İlahə Məcidova tərəfindən bir neçə gün öncə sosial şəbəkələrdə paylaşılan səs yazısı ölkəmizdə COVİD-19 virusunun 3-cü dalğasının qorxulu olacağı, uşaqlar arasında bu səbəbdən ölüm hallarının baş verəcəyi barədə əsassız məlumatlar öz əksini tapıb. Bu hal insanlarda vahimə və təşvişə səbəb olub.

**Psixoloq Fərqanə Mehmanqızı "Şərq"ə açıqlamasında deyib ki, belə adamların saxta məlumatları yaymaqda məqsədi insanları özünə cəlb etmək və fərqli görünməkdir:** "Hazırda sosial şəbəkələr insanlar tərəfindən aktiv şəkildə istifadə olunur. Hər kəs indiki dövrdə fərqlənmək istəyir. Bu tipli səs yazısı, yaxud saxta məlumat yaymaqla insanlar sosial platforma vasitəsilə özlərini fərqlənmiş hesab edirlər. Həmin şəxslərin həyata baxışında çox maraqlı tendensiyalar var. Belə ki, anonim olsa da onlar bu cür informasiyaları yayaraq seçilmək istəyirlər. Həmin şəxslər əhali arasında ajiotaja səbəb olmaqdan sanki həzz alır və özgüvənlərini yeniləyirlər. Belə hallar cəmiyyətə olan aqressiyadan yarana bilər. Təəssüf ki, sözügedən məlumatlara inananlar çox olur. Bu da cəmiyyətdə müəyyən problemlər yarada bilir".

**Aytac Ali**

# Qazın qiymətinin bahalaşacağı gözlənilir

## Ölkədə audit yoxlamaları ciddi aparılmır

### Səbəb odur ki, "Azəriqaz" özü dövlətə yük olub və dotasiya ilə işləyir

"Bu ilin yay ayında qazın qiymətinin qalxması gözlənilir". Bu fikirləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib. Ekspert qeyd edib ki, bunun səbəbi odur ki, "Azəriqaz" özü dövlətə yük olub və dotasiya ilə işləyir: "Bundan başqa, işığın qiymətində də artım gözlənilir. Çünki suyun və yanacağın qiymətinin artması digər kommunal xərclərin də qalxmasına sirayət edib. Bu ilin əvvəlində qazın qiymətinin artması ilə bağlı "Azəriqaz" Tarif Şurasına müraciət edib".

*R.Qarayev təəssüf hissi ilə qeyd edib ki, bizdə elmi institutlar sadəcə formal xarakter daşıyır:* "Ölkədə audit yoxlamaları ciddi aparılmır. Qiymətin qalxmasına müəyyən amillər təsir etməlidir. Hazırda sadalanan amillərin təhlili üçün iqtisadçı olmağa dəyməz. Yəni adi bir vətəndaş öz düşüncəsi ilə bu məsələni təhlil edə bilər. Digər təəssüfedici məqam odur ki, nə qədər nəzarətedici orqanlar yaransa da, onların fəaliyyəti istənilən səviyyədə deyil. Səbəbin biri də, qohumbazlıq, tanışbazlıq, tapşırıqla işə götürmək və ya işə götürülən kənar adamların yuxarı vəzifəli şəxs tərəfindən idarə olunmasıdır. Bu baxımdan bütün yük düşür əhalinin cibinə. Qiymət artımı ilə bağlı danışıqların nədən qaynaqlandığına baxanda, adamı gülmək tutur. Bir faktı qeyd edəcəm və bundan kənara çıxmayacam. Deməli, Sabirabadda olan kəndlərə-Ulacalı, Bulduq səfər edilir. Müəyyən olunur ki, işıq dirəkləri əvəzinə yerdə ağaclar dirək kimi basdırılıb və



kəndin bəzi yerlərinə bu formada xətlər çəkilib. Hətta sayğac belə, həmin dirəyin üstündə qoyulub. Bu barədə hətta məqalədə yazılır və rayon İcra Hakimiyyətinin qəzeti olan "Muğanın səsi" qəzetində işıqlandırılır. Məqalə isə göndərilir "Azərişıq"a və "Azərenerji"yə. Bir müddətdən sonra yerli elektrik şəbəkəsi də gəlib qəzeti götürür və məktub yazırlar ki, baxılacaq. Sonra zəng olunur ki, qeyd etdiyiniz məsələ öz həllini tapmasa nə edəcəksiniz? Müəyyən müddətdən sonra həmin kəndlərə yenə səfər olunur. Dəyişəcək heç bir şey olmur. Yenidən məqalə yazılaraq, şəkillər qəzetdə yerləşdirilir. Sonda yenə heç bir iş görülmür. "Azərenerji" və "Azərişıq"dan kəndə bir nümayəndə belə gəlib məsələ ilə maraqlanmır. Halbuki, "Azərişıq" və "Azərenerji"nin hesabatlarında hər şeyin yaxşı olduğu qeyd olunur. Belə faktlar "Azərsu"da, o cümlədən digər kommunal xidmət göstərən təşkilatlarda var".

**Ekspert əlavə edib ki, həmin təşkilatlarda ciddi yoxlamalar aparılsa və rəhbərliyin özü cəzalandırılsa müsbətə doğru dəyişikliklər olar:** "Hesab edirəm ki, elmi tədqiqat institutları lazımi formada işləsə, o cümlədən iqtisadçıların fikri, əhali arasında qiymət artırılmamışdan öncə hər hansısa sorğu aparılarsa, nəticə qiymət artımı ilə yox, azalması ilə müşahidə olunar".

**Aynurə Pənahqızı**

# Adət-ənənə ölkəsinin boşanmaları artır



**Kəramət Böyükçöl:** "Elə qadınlar var ki, cismən bakirə olsa da, ruhən belə deyil"



**Aysel Əlizadə:** "Passiv kişilər və arzusu olmayanlar cinayətkara çevrilə bilirlər"

Ziddiyyətli ailələrdə cütlüklərin boşanması hüquq elminin ən uğurlu seçimlərindən biridir. İnsanlar bir-birini öldürməsin, inciməsin, əzab içində yaşamağa davam edərək cəmiyyətə zəhər ötürməsin. Daha önəmlisi isə bu drama şahid olan travmalı uşaqlar yetişməsin deyə dövlətlər rəsmi boşanma aktını düşünüblər. Boşanma hüquqi mədəniyyətdir.

Amma cəmiyyətimizdə boşanan qadınlara münasibət birmənalı deyil. Bəzi qadınlar fiziki, psixoloji, hətta cinsi zorakılıqla üzləşsələr belə boşanmaq üçün addım atmırlar, daha doğrusu, ata bilmirlər. Buna isə ilk növbədə sosial-iqtisadi, psixoloji amillər təsir göstərir. Digər tərəfdən cəmiyyətin qınağı da bu işdə böyük rol oynayır. Qadın boşanmaq istəyəndə, hətta öz valideynləri belə buna müsbət yanaşmır. Nəticədə qadınlar məcburi şəkildə zorakılıq hallarına dözməli olurlar.

**Mövzu barədə "Şərq"ə danışan yazıçı Kəramət Böyükçöl qeyd edib ki, Azərbaycanda cəmi 3-4 problem var, qalanları həmin problemlərin törəmələridir:** "Bir insan üçün başqasının şəxsi həyatı niyə maraqlı olmalıdır ki? İş-güc yox, bekarçılıqdır, bilmirlər neyləsinlər, ona görə də başqalarının həyatına burun soxurlar".

*K.Böyükçöl qeyd edib ki, hüquqi bir dövlət olsaq da, əsasən adət-ənənə ölkəsiyik:* "Məsələn, boşanmış qadınlara belə münasibətlər ilk olaraq adət-ənənələrdən qaynaqlanır. Sivil dünya görüşünə malik bir ölkə, cəmiyyət olsaq, belə hallar yaşanmaz.

Bunların hər biri şəxsən mənim üçün boş və mənasız şeylərdir. Cismin bakirəliyi olduğu kimi, ruhun da bakirəliyi var. Elə qadınlar var ki, cismən bakirə olsa da, ruhən belə deyil. Hələ də gəlinin belinə qırmızı lent bağlamaq gündəmdədirsə, boşanmış qadına da münasibət birmənalı olmur. Bir əhvalat danışım: Təsadüfən məclislərin birində idim, 15-20 nəfər oğlanın hərəsi 15-20 sevgi xatirəsi danışdı. Məsələn, universitetin akt zalında filan qızla filan şeyləri etmişik və s. Lakin soruşsan, hamısının bacısı, xalası qızı namuslu və qeyrətlidir. Bəs, onların xatirəsini danışdıqları qızlar kimin bacısı, əmisi və dayısı qızlarıdır? Bir sözlə, çox dəlixana cəmiyyətdir, hərə bir ağıldadır".

**Yazıçı Aysel Əlizadənin sözlərinə görə, nə qədər 21-ci əsrdir desək də, problemlərimiz orta əsrlərdən qalmadır:** "Qədim zamanlarda sivilizasiya qurulmamışdı, istehsalat yox idi, iqtisadiyyat inkişaf etməmişdi, insanlar bekar idilər. Tayfa və qruplaşmalardakı insanlar boşluqdan özlərinə cürbəcür dəyərlər uydururdular, qadın üzərində əxlaq normaları qurulurdu, dini mühafizəkarlıq cəmiyyəti idarə edirdi. Katolik kilsəsindən üzü bu yana cəmiyyəti əldə saxlamağın yolu onun qadınını mühafizə etmək idi".

*Yazar xanımın fikrincə, cəmiyyətimizdə boşanan qadınlara birmənalı münasibətin olmaması insanların boş-bekar olması ilə bağlıdır:*

"İnsanların hər hansı bir peşə-sənət, hədəf və məqsədi olmadıqda ətraflarındakı adamla əlləşirlər və bütün enerjilərini məhz o insana sərf edirlər. Bu enerji isə adətən aqressiv olur. İnanmıram ki, bir kişinin işigücü, hədəfi, böyük arzuları olduğu halda qadını mühafizə etsin, onu boşanmağa qoymasın. Daha çox yoxsul ailələrdə belə problem olur. İnsanlar yalnız ona görə yoxsul olmurlar ki, iş tapa bilmirlər. Düzdür, işsizlik də önəmli faktordur. Eyni zamanda məqsədsizlik də vacib məqamlardan biridir. Passiv kişilər və arzusu olmayanlar cinayətkara çevrilə bilirlər. Qadını mühafizə edir, döyür və enerjisini ona tökürlər. Ona görə də insanları məşğul etmək lazımdır. Gərək insanları məqsədə, işə cəlb edək ki, bekar qalmasınlar".

**Yeganə Bayramova**

## "Məsələnin kökü burdadır..."

Zəlimxan Məmmədli: "Dərman satışındakı monopoliya aradan qalxmalı, sağlam rəqabət mühiti yaradılmalıdır"



**Qubada "Tramadol" həblərini satan şəxslər yaxalanıb. Quba Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları hadisə ilə bağlı araşdırma aparıb. Rayonun Qırmızı qəsəbə sakini Arsen Abramov saxlanılaraq Quba RPŞ-nə gətirilib.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba rayonundakı regional qrupundan verilən məlumata görə, dindirilmə zamanı A.Abramov həmin güclü təsiredici maddələri Şikar adlı şəxsdən əldə etdiyini bildirib. Şöbə əməkdaşları tərəfindən davam etdirilən əməliyyat tədbirləri ilə Şikar Məmmədov da saxlanılaraq istintaqa təqdim olunub. Həmin şəxs izahatında A.Abramovla tanışlığı olduğunu və həbləri ona satdığını etiraf edib.

**Baş verənləri "Şərq"ə şərh edən "Borçalı" Cəmiyyətinin sədri, həkim-stomatoloq Zəlimxan Məmmədli problemdən çıxış yollarını sadalayıb:** "Dərman satışındakı monopoliya aradan qalxmalı, sağlam rəqabət mühiti yaradılmalıdır. Hər kəs qanun qarşısında bərabər olmalıdır. Məsələnin kökü buradadır, baş verənlərin qarşısını inzibati qaydada almaq mümkün deyil. Çünki dərman monopoliyasının başında bütöv bir sistem dayanır. "Tramadol" kimi digər dərmanların da ticarət dövriyyəsini ayrı-ayrı vəzifəli şəxslər idarə edir. Hamı dövlət qarşısında məsuliyyətli olarsa, belə hallar minimuma enər".

**Yeganə Bayramova**

## Heç bir təsiri yoxdur

Tibbi maskalar mutasiyaya uğrayan virusdan qoruya bilmir



**Dünyanı cənginə alan koronavirus yayılmaqda davam etdikcə, onun yeni növləri də müəyyən edilir.**

Bunlardan ən təhlükəlisi isə Covid-19-un Böyük Britaniyada aşkar edilən mutasiyaya uğramış versiyasıdır.

**İtaliyada uzun müddətdir virusla mübarizə aparan həkimlərdən biri - Pier Luici Bartoletti Covid-19-un mutasiyaya uğrayan növü ilə bağlı bəzi açıqlamalar verib.** O bildirib ki, tibbi maskaların Britaniya variantı hesab edilən B117 virusuna heç bir təsiri yoxdur.

Yeni mutasiyalara qarşı FFP2 və FFP3 maskaları istifadə etmək olar. Virus qapalı yerlərdə maskadan nüfuz edə bilir.

"Bu virus ölümcül olmasa da daha çox yoluxucudur. Gənclərə xüsusi ilə təsir edir. Tez adaptasiya olaraq daha sürətlə xəstəliyə səbəb olur. Ona görə mutasiya olunan varianta qarşı diqqətli olmalıyıq" deyə, həkim söyləyib.

# "Bu xəmir hələ çox su aparacaq"

## "Pomidor və alma biznesi ilə məşğul olan şəxslər xüsusilə öz təsərrüfatlarına diqqət etməlidir"



Yanvar ayı ərzində Azərbaycandan Rusiyaya göndərilən ümumilikdə 120 ton pomidor geri qaytarılıb. Buna səbəb isə həmin məhsullarda Cənubi Amerika günəşinin aşkarlanması olub.

**Mövzu ilə bağlı "Şərq"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qeyd edib ki, Rusiyanın özündə bu problem var:** "Azad İstehlakçılar Birliyinin 123 ölkədə bu tip təşkilatları var ki, bizim onlarla xüsusi əlaqələrimiz var. Həmin məsələ ilə bağlı biz digər ölkələrdə olan həmkarlarımızla əlaqə saxladıq. Danışıqlar zamanı məlum oldu ki, əslində Rusiyanın özündə Cənubi Amerika güvəsi adlı xəstəlik var. Buna görə də onların iddiaları çox absurddur. Rusiya və Qazaxıstanla sözügedən məsələ haqqında danışıqlar aparılır. Artıq 39-a qədər pomidor istehsalçısına xarici bazara çıxmaq üçün icazə verilib".

*Eyyub Hüseynov deyir ki, məhsullarda hər hansı ziyanverici maddə aşkarlanarsa fermer özü AQTA-ya müraciət etməlidir ki, problem aradan qaldırılsın:*

"Ölkəmizdə bu işlə məşğul olan fermerlər ciddi məsuliyyət daşıyır. Dövlət həmin şəxslər üçün müstəqil şərait yaradıb. Onlara heç kim toxunmur. Başqa ölkələrdən fərqli olaraq biz biznesin inkişafı üçün əlimizdən gələni edirik. AQTA məhsulları birbir araşdırmalı deyil. Gərəkdir ki, fermerlər də öz təsərrüfatlarını qorusunlar. Əgər mənfi hal müşahidə olunarsa, istehsalçı quruma müraciət etməlidir. Fermerlər bu haqda məlumat verdikdən sonra AQTA-nın əməkdaşları məhsullara baxış keçirərək ziyanvericilər haqqında onlara məsləhət verməklə problem aradan qaldırıla bilər. Pomidor və alma biznesi ilə məşğul olan şəxslər xüsusilə öz təsərrüfatlarına diqqət etməlidir".

**Aytac Ali**

## Gələn ildən qrip virusu yoxa çıxır

Kəskin respirator xəstəliklərdən əziyyət çəkənlər demək olar ki, yox dərəcəsindədir



**Maska taxmaq, məsafə saxlamaq və digər karantin tədbirləri sağlamlığa heç bir şəkildə zərər verməyəcək, əksinə, qripə qarşı kollektiv immunitetin yaranmasına kömək edəcək.**

*Medicina xəbər verir ki, bunu immunoloq, virusoloq Vladislav Jemçuqov müsahibəsində deyib.*

"Mövcud məhdudlaşdırıcı tədbirlər ona gətirdi ki, hazırda soyuqdəymə və kəskin respirator xəstəliklərdən əziyyət çəkənlər demək olar ki, yox dərəcəsindədir".

Bundan əvvəl bir sıra alimlər qış aylarında ciddi qrip xəstəliklərinin baş verməsi barədə məlumat vermişdilər. Onların fikrincə, koronavirusla mübarizədə məhdudlaşdırıcı tədbirlərə görə digər tənəffüs xəstəliklərinə, xüsusən də qripə qarşı cəmiyyətin immuniteti zəifləyib.

Lakin Jemçuqovun sözlərinə görə, gələn il bu xəstəliyin epidemiyası üçün heç bir təhlükə yoxdur. O, mütəxəssislərin vəziyyəti nəzarətdə saxladıqlarını və ştamlar olarsa, növbəti qış peyvəndlərin uyğun olub-olmaması barədə mütləq məlumat veriləcəyini vurğulayıb.

# "Diləyirik ki, toylara da icazə verilsin"



Sevilən xanəndə, Əməkdar artist Elnarə Abdullayeva "Günün sədası" proqramına qonaq olarkən bir ildir toyların olmamasından, şəxsinə yazılan tənqidlərdən danışıb. Xanəndə həmin verilişdə belə deyib: "Kimsə soruşur, bir ildir müğənnilər heç yana getmirlər, nə edirlər? Oturub gözləyirik ki, nə vaxt pandemiyadan öləcəyik.

### Elnarə Abdullayeva: "Qızıl məsələsini çoxdan demişəm ki, çətinliyə düşəndə qızıllarımı satıb yemişəm"

İndi bir məqsədimiz var, nə vaxt öləcəyik? Bunu niyə danırıq? Bizim işimiz musiqidir, onsuz yaşaya bilmərik. Biz toya gedəndə pulun hamısını özümüzə götürməmişik. Musiqiçilərə də qonorar vermişik. Heç musiqiçinin arxasınca danışarlar? Kiminsə şad günü olur, gedib əyləndiririk. Evdə oturmaqdan gərginləşirik. Toy çətindir, bunu bütün sənət adamları bilir. Amma bu əziyyətə baxmayaraq, pandemiya başlayandan gərginik. İnsanlar elə başa düşür ki, nəsə çatışmazlıqdan, aclıqdan edirik. Bu, sənət aclığıdır. Bu durum bizi öldürür. Yığışardıq, oxuyardıq. Bütün sənət dostlarım üçün darıxıram. Bir tikə şor-çörəklə doyan adamam. Qızıllarımı satmışam, yemişəm".

**Biz də Elnarə xanımın özü ilə əlaqə saxlayıb, sözügedən açıqlaması ilə bağlı söhbət etdik. Əməkdar artist "Şərq"ə verilişdə toyların yoxluğundan şikayətlənmədəyini söylədi:**
"Ümumiyyətlə, bir musiqiçi kimi işin olmamasından söz açdım. Adamın bağrı çatlayır axı. Hərənin öz işi var, biz də sənətlə məşğuluq. Qızıl məsələsini çoxdan demişəm ki, çətinliyə düşəndə qızıllarımı satıb yemişəm. Yəni köhnə söhbətdir. İnsan hər çətinliyə dözür, təki salamatçılıq olsun, Tanrı dərd göstərməsin. İkinci bir tərəfdən də işimiz, tamaşaçımız üçün darıxırıq. Məşq eləmək, oxumaq da istəyirik. Hamımızın dərdimiz-sərimiz budur. Allah deyib, oturmuşuq. Şükür hər şey yaxşıdır. Diləyirik ki, toylara da icazə verilsin, cavanlarımız ailə qursun. Gözəl günlərdə, şadlıqda iştirak edək. Elnən gələn toy-bayramdır. Bir də ki, pandemiya tək bizim işimizə deyil, bir çox sahəyə təsir göstərib. Bu günə də şükür. Allah millətimizə xoşbəxt günlər qismət eləsin. Torpaqlarımızı işğaldan azad etdik, ona görə ürəyimiz də sakitdir".

**Samirə Ərəbova**

## Evsiz qalıb

### Xəstəxanadan çıxan Çingizi qızı görmək istəmədi



**Mərhum Xalq artisti Səyavuş Aslanın oğlu Çingiz xəstəxanadan buraxılıb.**

Spirtli içki aludəçisi olan Çingiz "Elgizlə izlə" proqramına gəlib. Aparıcı Elgiz Əkbər bildirib ki, onun qalmağa evi yoxdur:

"Mənim elə imkanım yoxdur ki, Çingizə ev tutum, onu saxlayım. Bir-iki gün qalmaq üçün yer taparam, amma nə qədər? Qocalar evi də onu qəbul etmir, çünki dosyesi onlara gedib və yaxşı olmadığını görüblər. Kimə deyirik, qəbul etmir".

Şingiz 5 yaşında tərk etdiyi qızını görmək istəyib və proqram heyəti onunla əlaqə saxlamağa çalışıb. Adını açıqlamaq istəməyən və ailənin yaxını olduğunu deyən xanım canlı yayıma zəng edib. O bildirib ki, qızı onunla görüşmək istəmir:

"Çox sağ olun ki, onun qayğısını çəkirsiz. Çingizin ayrıldığı həyat yoldaşı ikinci dəfə ailə qurub. Həmin adam da onun övladına adını və soyadını verib. İndi o qız 5 yaşında deyil. Onun 30-dan çox yaşı var və ailəlidir. Bu yaşda onu narahat etmək düzgün deyil, onun ətrafı var. Çingiz efirlərə çıxır, hamı görür, qızın da ondan xəbəri var, istəsə, əlaqə qurardı. Onları bu barədə axtarmayın".



## Bizi "Eurovision"da Samirə Əfəndi təmsil edəcək

### Mahnımız martda təqdim olunacaq

**İctimai Televiziya "Eurovision 2021" mahnı müsabiqəsi üçün musiqi qəbulunu yekunlaşdırıb.**

Bu barədə yarışmanın Azərbaycandakı nümayəndə heyətinin rəhbəri İsa Məlikov deyib. Onun sözlərinə görə, seçim mərhələsinə yerli və xarici müəlliflərdən 229 kompozisiya təqdim olunub:

"Komandamız mahnıları layiqincə qiymətləndirmək üçün onaların hər birini bir neçə dəfə dinlədi. Onların arasında həqiqətən gözəl kompozisiyalar var idi, altı ən yaxşısı bizim şort-listimizə düşmüşdü. Hər zaman olduğu kimi, janrdan asılı olmayaraq, gözəl və peşəkar mahnı axtarmağa çalışdıq. Lakin bu il də ilk növbədə biz onun ifaçı ilə nə dərəcədə uzlaşacağını nəzərə alırdıq".

Nümayəndə heyətinin rəhbəri bildirib ki, Avropa Yayımları Birliyinin (AYB) tələblərinə uyğun olaraq, hər bir mahnının müddəti 3 dəqiqədən çox olmamalıdır. Seçim prosesinə əsasən, mahnı növbəti mərhələdə müxtəlif ölkələrdən olan 50-dən çox "Eurovision" mütəxəssisindən ibarət beynəlxalq fokus-qrupunun səsverməsi əsasında seçiləcək.

Mahnının rəsmi təqdimatı martın ikinci həftəsində baş tutacaq. Müsabiqədə ölkəmizi müğənni Samirə Əfəndi təmsil edəcək.

## "Talıb Tale Damlaya söz deməyi özünə yaraşdırırsa..."

### Şamil İbrahimov: "Digər müğənniyə etibar eləmirəm, birdən verilişdə Damlaya ağzına gələni deyər"



Bir neçə gün öncə "Heç vaxt, heç yerdə" verilişinə qonaq olan müğənni Talıb Tale həmkarı Damlanı sərt tənqid edib. O, Damlanın onsuz efirə tək çıxmaq istəyinə irad bildirib: "Bilmirəm, doğrudan da deyib, ya yox, amma səhv edir. Onun gəldiyi yol da göz qabağındadır. Necə gəlib, tamaşaçılar görüb, elə də uzaq tarix deyil. Əgər belə bir addım atırsa, yanlışdır.

Onda mən də deyim ki, Damla olan məclisə gəlmirəm. Düzgün deyil axı. Toylarda elə olur bir yerdə oxuyuruq. Ona görə də məntiq yanlışdır. Onun xeyrinə deyil, yaxşı çıxmaz. Mən burda onu pisləmək üçün demirəm, sadəcə istəyinə yaxşı baxmıram. Bəlkə də, fikirləşir ki, belə edərək daha da reytinqini qaldıracaq. Məncə, səhvdir".

**Talıb Talenin fikirlərinə cavab verən Damlanın prodüseri Şamil İbrahimov "Şərq"ə bunları deyib:**
"Deyibsə də deyib. Neyləmək olar? Heç nə? Müğənnilərin hamısı Talıb kimi eyni sözü təkrarlayır. Heç vaxt Damlanı sevmədilər, bəyənmədilər. Həmişə onu bayağı müğənni adlandırdılar. Soruşsaq ki, bayağı nədir?

Cavabları olmaz. Onlar bayağının mənasını bilmirlər. Hansı müğənni ki, Damlanın bayağı olduğunu söyləmir, o, həmin adın mənasını anlayır, ona görə Damlaya bu sözü demir. Talıb Taleyə bir xanım haqqında nə isə deməyi bir kişi kimi özünə yaraşdırırsa, danışsın. Buna başqa nə ad vermək olar?!".

Şamil bəy həmçinin efirə tək çıxmaq kimi bir şərtlərinin olmadığını xüsusi vurğulayıb: "Biz kiməsə elə bir qadağa, şərt qoymamışıq. Amma çalışdığım qədər istəyirəm ki, Damla efirə tək çıxsın. Çünki digər qonaq müğənniyə etibar eləmirəm, birdən verilişdə Damlaya ağzına gələni deyər.

Normal həyatda Damladan danışırsa, efirdə də dilə gətirəcək. Bilirəm ki, heç biri Damlanı sevmir. Verilişdə nə isə xoşagəlməz söz işlədərlər, yaxşı nəticələnməz.

Lakin təkrar edirəm, kiməsə şərt qoymuruq. Belə bir söhbət yoxdur".

**Samirə Ərəbova**

## Pərviz Bülbülə Damlanın duet ortağı olmayıb



**Müğənni Damlanın prodüseri Şamil İbrahimov "Şərq"ə iddialı açıqlamalar verib.**

O, müğənninin eks-duet ortağı, meyxanaçı Pərviz Bülbülə haqqında da danışıb. Şamil bəy söz ustadı ilə bağlı bunları söyləyib:
"Pərviz Bülbülə Damlanın duet ortağı olmayıb. Sadəcə efirdə təsadüfən bir mahnı oxuyublar. Bir yerdə studiyada səs yazdırmayıblar. Kimsə deyə bilməz ki, Pərviz Bülbül ilə Damla duet ortağı olub. Məsələn, Damla Eldar Xəlilovla duet ortağı idi. Pərviz Bülbülə ilə verilişlərin birində canlı ifa ediblər. Sonra toya da çağırıblar, gediblər. El məclisidir bütün müğənnilər bir-biri ilə rastlaşa bilir".

**Samirə**

## "Deyir ki, ana, səsin başıma düşür"

### Gülay Zeynallı qızı Sahilədən danışıb



**Müğənni Gülay Zeynallı "10-da görüşək" proqramında qızı Sahilədən danışıb.**

Axşam.az xəbər verir ki, sənətçi aparıcı Samir Bayramlının "Övladının müğənni olmasını istəyərsən" sualını cavablandırıb. O bildirib ki, Sahilə onun ifalarını dinləmir:

"Qızımın xarici dillərə daha çox həvəsi var. Evdə heç mahnı da oxumur. Hətta mən məşq edəndə deyir "Ana, səsin başıma düşür". Daha çox xarici musiqilərə qulaq asır. Hətta zövqlü insanın ruhuna təsir edən ifaları dinləyir".

# Mütləq həkim təyin etməlidir

## Aspirinin sağlam insanlara faydasından çox ziyanı var




**Həkimlərin əksəriyyəti etiraf edir ki, sağlam insan tərəfindən profilaktik məqsədlə istifadə edilən istənilən dərmanların qəbulu xeyirdən çox ziyan gətirə bilər. Belə dərmanlardan biri aspirindir. 100 il bundan əvvəl Feliks Xoffman tərəfindən sintez olunmuş bu populyar dərman dünyada müxtəlif məqsədlərlə çox geniş istifadə olunur.**

Uzun illər ərzində hesab olunurdu ki, aspirin insanlarda ürək-damar sistemi xəstəliklərinin və infarktın qarşısını alır. Nəticədə həkimlər bu preparatı yaşı 45-dən çox olan bütün insanlara səbəbli-səbəbsiz təyin edirdilər.

Bu hal o qədər kütləvi xarakter alıb ki, tam sağlam insanlar hətta həkimlə məsləhətləşmədən özünə aspirin "təyin edirdilər".

Lakin son araşdırmalar nəticəsində məlum oldu ki, aspirinin sağlam insanlara faydasından çox ziyanı var. Məsələ burasındadır ki, aspirini daim qəbul edən insanlarda daxili qanaxmaların, mədə xorasının və hətta mədə xərçənginin riski yüksək olur.

İngiltərə və ABŞ mütəxəssisləri geniş əhatəli araşdırmalar nəticəsinə belə qərara qəldilər ki, aspirinin ürək-damar sistemi xəstəliklərinin profilaktikası üçün qəbulu məqsədə uyğun olmayan təcrübədir. Sağlam insanlara aspirinin uzunmüddətli profilaktik qəbulu yalnız zərər verir. Lakin bu, sağlam insanlara aiddir.

Müəyyən qrup insanlar var ki, onlar aspirini qəbul etməlidir. Bu, ürək və təzyiqlə ciddi problemlər olan, keçmişdə infarkt keçirmiş, piylənmədən əziyyət çəkən və s. insanlardır. Həmin insanlar üçün aspirinin qəbulu həyati vacibdir. Aspirin bu insanlarda infarktın inkişafının riskini 25 faiz azaldır.

Lakin aspirini xəstəyə mütləq həkim təyin etməlidir, dərmanın dozası mümkün qədər kiçik olmalı və xəstə müstəqil şəkildə bu dozanı artırmamalıdır. Həmçinin xəstə daim həkimin nəzarətində olmalı və öz vəziyyətində istənilən dəyişikliklər hiss etdikdə dərhal həkimə bu haqda məlumat verməlidir.

Ümumdünya Səhiyyə Təşkilatı 12 yaşına çatmamış uşaqlara aspirinin verilməsini tövsiyə etmir. Araşdırmalar nəticəsində məlum oldu ki, virus infeksiyaları zamanı aspirinin qəbulu uşaqlarda Rey sindromunun inkişafına səbəb ola bilər.

Bu sindromun nəticəsində beyində və qara ciyərdə ciddi pozulmalar inkişaf edir.

**Yeganə Bayramova**



## Qar fırtınası...

### Xəbərdarlıq edilib ki, 60 saat müddətinə təhlükəyə hazır olun

**ABŞ-ın bəzi əyalətlərində havanın kəskin sərt keçməsi ilə əlaqədar olaraq nəqliyyat sistemi iflic olub və yüzlərlə uçuş təxirə salınıb.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, Minnesota və İllinois əyalətlərindən şərqə doğru başlayan qar fırtınası Virciniya, Maryland və Vaşinqtona da təsir edib. Hətta Çikaqoda qarın qalınlığı 17 santimetrə çatıb. Qar qalınlığının 10 santimetrə çatdığı Vaşinqtonda isə fövqəladə vəziyyət elan edilib.

ABŞ-ın şərq sahillərini viran qoyan qar fırtınası Nyu-Yorkda da həyatı tamamilə dayandırıb. Bazar ertəsi günortadan sonra Nyu-Cersi və Pensilvaniya bölgələrində qarın qalınlığı 48 santimetrə çatıb. Nyu-York əyalətində bəzi yerlərdə 43 santimetrə çatan qar səbəbindən fövqəladə vəziyyət elan edilib. ABŞ-ın hava xidməti fırtınanın İngiltərəyə doğru hərəkət edəcəyini bildirib. Hətta İngiltərənin bəzi bölgələrinin 60 saat müddətində təhlükəyə hazır olmaları barədə xəbərdarlıq edilib.

Bir neçə gün ərzində saatda 80 kilometr sürətlə əsəcək güclü küləklərin həyata mənfi təsir göstərməyə davam edəcəyi təxmin edilir.

**Aynurə**

# 34 anonim zəng qeydə alınıb

### Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidmətinə 2020-ci il ərzində 6657 müraciət daxil olub!

**Cəmiyyətimizin ən həssas, ən çox qayğı və diqqət tələb edən təbəqəsi uşaqlardır. Ölkəmizin parlaq gələcəyi üçün uşaqların sağlam mühitdə, qayğısız və problemsiz böyümələrini təmin etməliyik. Azercell-in dəstəyi ilə fəaliyyət göstərən "Uşaq Qaynar Xətt" xidməti koronavirus pandemiyasının (COVİD-2019) nəticəsi olaraq elan edilmiş qlobal sağlamlıq böhranı dövründə gücləndirilmiş iş rejimində çalışaraq ötən il 6657 uşağa yardım edib.**

On ildən artıqdır ki, fəaliyyət göstərən "Uşaq Qaynar Xətti" müxtəlif təzyiqlə üzləşən, hüquqları pozulan uşaq və yeniyetmələrə dəstək olub onları psixoloji və fiziki travmalardan qorumağa çalışır. Xidmətin əməkdaşları uşaqlara və övladları ilə bağlı müəyyən problem yaşayan ailələrə həm sosial xidmət göstərir, həm də hüquqi və psixoloji yardım edir. Qaynar Xəttə daxil olan müraciətlər müxtəlif sahələri əhatə edən sual və problemlər ilə bağlı olur. Ötən il zənglərin bir çox hissəsi - 3602 müraciət təhsil sahəsi ilə əlaqədar olub. Xidmətə hüquqi sahə ilə bağlı 909, psixoloji problemlərlə bağlı 668, sosial sahəyə aid 501, səhiyyə sahəsi ilə bağlı 388 müraciət daxil olub. Zənglərdən 589-u digər sahələrə aiddir.

Qeyd edək ki, 2020-ci ildə xidmətə müraciət edən qızların sayı üstünlük təşkil edib ki, zənglərin 3494-ü qızlardan, 3129-u isə oğlanlardan daxil olub. Bu müraciətlərdən 5499-u 18 yaşdan yuxarı, 1124-ü isə 18 yaşdan kiçik vətəndaşlar tərəfindən daxil olub. Həmçinin 2020-ci il ərzində 34 anonim zəng qeydə alınıb.




Azyaşlı uşaqlarla bağlı zənglərin əksəriyyəti əvvəlki illərdə olduğu kimi yenə də əksər hallarda hüquqi problemlərlə əlaqədar olub. Bura boşanan valideynlərin övladlarını görməkdə çətinlik çəkməsi, uşaqlarda yaranan psixoloji problemlər və digər məsələlər daxildir.

2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar olaraq böyüklərlə yanaşı, azyaşlı və yeniyetmələrdə də bir sıra psixoloji problemlər yaranıb. Daxil olan müraciətlərin əksəriyyəti pandemiyanın yaratdığı gərginlik və fobiyalar, eləcə də onlayn təhsil ilə bağlı olub. Müraciət edənlərə əsasən telefon vasitəsilə psixoloji yardım göstərilib, ehtiyac yarandığı təqdirdə isə karantin qaydalarına uyğun olaraq, fərdi və qrup terapiyaları həyata keçirilib. Ötən ilin sonunda yaşadığımız Vətən müharibəsi ilə bağlı da "Uşaq Qaynar Xətt" xidmətinə bir çox müraciətlər daxil olub. Xüsusilə regionlardan- Ağdam və Gəncə bölgələrindən evlərini itirən, yaxınlarını itirmə qorxusu yaşayan, stress və travmaya məruz qalan uşaqlarla uğurlu reabilitasiya işləri aparılıb.

İl ərzində "Azərbaycan Uşaq Qaynar Xətt" xidmətinə paytaxt Bakı daxil olmaqla, ölkəmizin müxtəlif bölgələrindən müraciət edilib. Xidmətə Ağdam, Ağdaş, Zərdab, Goranboy, Göyçay, Şəki, Şamaxı, Gəncə, Qazax, Tovuz da daxil olmaqla 44 rayondan zənglər daxil olub. Hətta Azərbaycan hüdudlarından kənarda yaşayan soydaşlarımız da müəyyən problemlərlə bağlı xidmətə müraciət ediblər. Bunların sırasında Türkiyə, Rusiya, Ukrayna, Qazaxıstan, Avstriya, Almaniya və Özbəkistandan daxil olan müraciətləri qeyd etmək olar.

Qeyd edək ki, " Ümidli Gələcək Sosial Təşəbbüslər" İctimai Birliyinin təşəbbüsü ilə yaradılan və "Azercell Telekom" MMC-nin dəstəyi ilə vətəndaşlara xidmət edən "Uşaq Qaynar Xətti" fəaliyyət dövrü ərzində 48007 müraciət cavablayıb. Mərkəzə daxil olan bütün müraciətlər məsləhətçi-hüquqşünas, psixoloq və sosial işçilər tərəfindən dinlənilir. Zəng edənlərə lazımi məsləhətlər verilir, ehtiyac yarandıqda onlar Uşaq Hüquqları Klinikasına yönləndirilir. Daxil olan müraciətlərin birbaşa xidmət çərçivəsində həll edilməsi mümkün olmadığı hallarda, Qaynar Xətt əməkdaşları müvafiq dövlət qurumları və QHT-lərlə birgə araşdırma aparırlar.

"Azərbaycan Uşaq Qaynar Xətti"nə 24 saat xidmət göstərən 116111 qısa nömrəsi, +994 50 680 22 80, +994 51 580 22 80, +994 51 880 11 80, +994 51 880 22 80 mobil nömrələri, elektron poçt, facebook və instagram sosial şəbəkələri, mərkəzin saytındakı canlı çat və "uşaqqaynarxetti" mobil əlavəsi vasitəsilə müraciət etmək olar.

## "Nar" sosial izolyasiya dövründə təhsilə dəstək olmağa davam edir

**Ölkədə təhsilin inkişafına xüsusi önəm verən "Nar" pandemiya dövründə də alternativ kanallarla təhsilinə davam edən tələbə və şagirdlərə öz dəstəyini göstərir.**

Belə ki, mobil operator Azərbaycan Respublikası Təhsil Nazirliyinin xüsusi layihəsi olan və sosial izolyasiya dövründə internetə çıxışı məhdud olan şagirdlər üçün TV üzərindən canlı dərslər yayımlayan "Dərs vaxtı" proqramını rabitə dəstəyi ilə təmin edir.

Proqramda məktəbdə keçirilən bütün fənlərin televersiyası nümayiş olunur və bu teledərslər şagirdlərə ölkənin istənilən yerindən ən təcrübəli müəllimlərin izahı ilə mövzuları öyrənmək üçün unikal imkan yaradır. Dərsləri həftəiçi hər gün "Mədəniyyət" və "ARB Günəş" telekanallarında izləmək mümkündür. Gündəlik dərs cədvəli ilə burada tanış ola bilərsiniz. Xatırladaq ki, "Nar" pandemiya dövründə təhsilin davamlılığına dəstək məqsədilə sərfəli "TƏHSİL+" internet paketini təqdim edib ki, bu da şagird və tələbələrin, eləcə də müəllimlərin onlayn dərslərə daha rahatlıqla qoşula bilməsinə imkan yaradır.

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 234



## Elmdə bir ilk, xüsusi siqnal ötürür

### İspanaq mina axtarışında kömək edə bilər

**Amerikalı nano mühəndislər yeni texnologiyalar vasitəsilə ispanaqdan xüsusi detektor hazırlayıb. Bu detektorla mina və basdırılmış partlayıcı maddələrin yerini tapmaq mümkündür.**

Medicina xəbər verir ki, ispanaq yarpaqları qrunt sularında bitki köklərinin dibində partlayıcı maddədən qaynaqlanan nitrobirləşmələri aşkarlayıb, xüsusi siqnal ötürür. Alınan siqnal infraqırmızı kameralarla qeydə alınır və elektron blokla məktub şəklində göndərilir. Nəticədə bitkilərin kökündə olan kimyəvi maddələrlə bağlı analiz alınır. Ona görə də ispanaq gözlənilən ekoloji problemlərdən də xəbər verə bilər.

## Ceff Bezos "Amazon"dakı vəzifəsindən gedir



**Dünyanın ən varlı adamı və "Amazon"un yaradıcısı Ceff Bezos 26 il əvvəl qurduğu şirkətin baş direktoru vəzifəsindən gedəcək.**

Bundan sonra Ceff şirkətdəki işinə sadəcə İdarə Heyətinin sədri olaraq davam edəcək. Bezosu tərk etdiyi postda Endi Cessi əvəz edəcək. "Amazon"da kadr dəyişikiliyinin bu ilin ortalarına qədər həyata keçirilməsi gözlənilir. Bezos "Amazon"un baş direktoru olmağın böyük bir məsuliyyət və əzmkarlıq tələb edən iş olduğunu bildirib.

## Məşhur cütlük evlənir



**Aktrisa Özge Yağız həmkarı Gökberk Demirciyə ərə gedir.**

Türk mediası xəbər verir ki, uzun müddətdir sevgili olan ikili bu münasibəti rəsmiləşdirmək qərarına gəlib.

Yaxınlarının məlumatına görə, onlar tez bir zamanda evlənəcəklər. Cütlüyün toyunun hansı tarixdə baş tutacağı isə hələ bəlli deyil.

*Xatırladaq ki, Gökberk və Özge "Yemin" serialında tanış olub eşq yaşamağa başlayıb.*

## Sevincini "Instagram"da bölüşdü

### Məşhur türkiyəli aktyor sevgilisinə evlilik təklif etdi



**Türkiyəli məşhur aktyor Berk Oktay bir müddətdir sevgili olduğu həmkarı Yıldız Çağrı Atiksoya evlilik təklif edib.**

Oxu.az xəbər verir ki, "Hə" cavabı alan aktyor sevincini "Instagram" hesabında pərəstişkarları ilə bölüşüb.

Bir il əvvəl keçmiş arvadı Mərvə Şarapçıoğlu ilə səs-küylü boşanan 38 yaşlı aktyor paylaşımına "Birlikdə yaşlanaqmı? Dedim, "hə" dedi",- deyə qeyd edib.



# Qızqaçırtma qanla sonuclandı

## Silahlı davada 40 nəfər həbs olunub





**Türkiyədə yaşanan qanlı toqquşma ölkənin gündəmi olub. Şanlıurfada qızqaçırtma səbəbindən iki qrup arasında insident böyük davaya çevrilib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu səbəbdən üz-üzə gələn Gezen və Gezmiş ailələri arasında qızğın mübahisə baş verib. Qadınlar və uşaqlar da daxil olmaqla onlarla insan tüfəng, daş, çubuq və bıçaqla biri-birlərinə hücum ediblər. Hadisə yerinə gələn polislərin bütün müdaxilələrə baxmayaraq, mübahisə səngiməyib. Dava nəticəsində 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq, şəhərdəki xəstəxanalara yerləşdirilib. 40 nəfər isə polis tərəfindən saxlanılıb.

**Aynurə**

## Alim dünyanın sonunu hesablamağı bacarıb

### Qiyamət günündə hər şey məhv olacaq



**Britaniyalı alim, Mançester Universitetinin professoru və London Kral Cəmiyyətinin bir tədqiqatçısı dünyanın sonunu hesablamağı bacarıb.**

Lent.az-ın xarici mediaya istinadla verdiyi xəbərə görə, fizik Günəşin fəaliyyətini analiz etdikdən sonra maraqlı faktları dərc edərək yerin ömrünün müddətini təyin edə bilib.

Mütəxəssis ulduzun hər saniyədə 600 milyon tona qədər hidrogen istehlak etdiyini təsbit edib. O, ulduzun özündə baş verən reaksiyalar nəticəsində əmələ gəlir.

Bu elementin ehtiyatlarının məhdud olmadığını nəzərə alaraq tədqiqatçı bir gün quruyacağını, bundan sonra Günəşin qırmızı nəhəngə çevriləcəyini ehtimal edir. İşıq ölçüsü böyüməyə başlayacaq, mövcud ölçüsünü ən azı 200 dəfə aşacaq və Yerin orbitinə çatacaq. Bu proses ulduzun parlaqlığında bir artımla müşayiət ediləcək və hər milyard ildə təxminən 10 faiz artacaq. Nəticələri Yer kürəsi və orada yaşayan hər şey üçün fəlakətli olacaqdır.

Qiyamət 5 milyard il sonra baş verə bilər.

## Birini hərraca çıxarıb

### Ancelina Coli tablosunu 5 milyona satır



**Hollivud ulduzu Ancelina Coli evindəki tablolardan birini hərraca çıxarıb.**

Sözügedən əsəri Böyük Britaniyanın keçmiş baş naziri Uinston Çörçil İkinci Dünya Müharibəsi illərində çəkib. Coli tablonu 2011-ci ildə təşkil olunan hərrac zamanı əldə edib. "Tower of the Koutoubia Mosque" adlı incəsənət əsəri 2 milyon 500 min funt-sterlinqə (5 milyon 800 min manata) təklif edilir. Auksion Böyük Britaniyanın Kristis hərrac evində keçiriləcək.